# KÖRFƏZ ÖLKƏLƏRİ İKİ OD ARASINDA



İran-İsrail-ABŞ müharibəsinin miqyası genişlənir. Xüsusilə də Körfəz ölkələrinə zərbələrin miqyası artır.

İran ətrafında yaşanan gərginliyin miqyası genişlənir. Müharibə areалı artıq Kiprə çatıb. Fevralın 28-dən başlayan hərbi əməliyyatların ciddi ziyan vurduğu ölkələr sırasında Körfəz dövlətləri də var. ABŞ-nin hücumlarına cavab olaraq, İran da Körfəz ölkələrinə zərbələr endirir. İndi hər kəsi bir sual düşündürür - Fars körfəzi ölkələri İranla müharibəyə girəcəkmi?

SƏHİFƏ 6-da

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

7 MART ŞƏNBƏ 2026 № 09 (4260) Qiyməti - 60 qəpik www.kaspi.az



## DİPLOMATİK HEYƏTİMİZ İRANDAN ÇIXARILIR

Xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, Prezident İlham Əliyev İrandan diplomatik heyətin tam çıxarılmasına qərar verib. Bu proses həm Tehrandakı səfirlik, həm də Təbrizdəki baş konsulluğa şamildir.

SƏHİFƏ 2-də



## “UĞURA GEDƏN YOL UĞURSUZLUQDAN BAŞLAYIR”

Sərbəst güləş üzrə üçqat dünya, dördqat Avropa çempionu Hacı Əliyev: “Hər bir insanın həyatında uğursuzluqlar da olur. Amma bu, son deyil. Bu, insanı heç vaxt ruhdan salmamalıdır. Uğurlu yol çətinliklərdən keçir”.

SƏHİFƏ 11-də



## UNUDULMAZ SƏDAQƏT HEKAYƏSİ

Leylək Yaren hər il Keniyadan yola çıxır və təxminən 5-6 min km məsafə qət edərək, fevral və mart aylarında yenidən Uluabat gölündəki yuvasına qayıdır. Artıq 15 ildir ki, o, yayı burada dostu Adem əmi ilə birlikdə keçirir.

SƏHİFƏ 15-də

### “BİZƏ QARŞI BU TERROR AKTINI TÖRƏDƏNLƏR PEŞMAN OLACAQLAR”

# DOST MÜNASİBƏTƏ DÜŞMƏNCƏSİNƏ CAVAB




Ölkəmizin nümayiş etdirdiyi dost münasibətin müqabilində qarşı tərəfdən həyata keçirilən xain dron hücumu rəsmi Bakının kəskin reaksiyasına səbəb olub. Hadisədən dərhal sonra Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.

**AZƏRBAYCANA QARŞI TERROR AKTI**

Prezident İlham Əliyev İrana ciddi xəbərdarlıq edib. O, məlum hücumu Azərbaycan dövlətinə qarşı terror aktı kimi dəyərləndirib: “Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir”.

**“BÖYÜK NANKORLUQ NÜMUNƏSİDİR”**

Prezident İlham Əliyev bir daha bəyan edib ki, Azərbaycan nə o vaxt, nə də bu dəfə İrana qarşı olan əməliyyatlarda iştirak etmir və etməyəcək: “Onların törətdiyi bu terror aktı bütün başqa çirkin amillərlə yanaşı, böyük nankorluq nümunəsidir”.

SƏHİFƏ 3-də

### “Kişilər arasında ilk solist qadın olmuşam”

## “SEVİNİRƏM Kİ, YADDAŞLARDA GÖZƏL İFAMLA QALMIŞAM”



8 Mart onun üçün təkcə qadınlar bayramı deyil, həm də doğum günüdür. O, bu tarixdə 80 illik yubileyini qeyd edir. İllər onu təkcə tanınan kamança ifaçısı kimi sevdirməyib, həm də çox musiqiçiyə örnək ola biləcək şöhrətli bir ömür yaşadıb. Xalq artisti Şəfiqə Eyvazova ilə bir illik cəhdlərdən sonra baş tutan müsahibəmiz də elə bu özəl günə təsadüf etdi.

SƏHİFƏ 8-9-da



## BEYNƏLXALQ BİRLİKDƏN AZƏRBAYCANA DƏSTƏK

Dünya ölkələri Naxçıvanın İran dronları tərəfindən hədəf alınmasını kəskin şəkildə pisləyib. Bu məsələdə Azərbaycana dəstək ifadə edərək, hücum aktının beynəlxalq hüququn prinsiplərinə zidd olduğunu bəyan ediblər.

SƏHİFƏ 4-də



## O İLLƏRDƏN BU İLLƏRƏ: 8 MART

Hazırda 8 Martda ən çox satılan məhsullar gül, xüsusilə qızılgül, parfümeriya və kosmetika məhsulları, qızıl-zinət əşyaları və smart cihazlardır. Tələbat yüksək olduğu üçün həmin gün qiymətlər cib yandırır.

SƏHİFƏ 13-də



## KASKO “LÜKS”Ə ÇEVRİLİR?

Bu ilin əvvəlindən ölkədə avtomobil idxalında müşahidə edilən dəyişikliklər və tarif siyasəti KASKO sığortası bazarına təsir edib. 2026-cı ilin ilk ayında yığımlar azalıb, zərər əmsalı isə yüksəlib.

SƏHİFƏ 12-də



**Azərbaycanın artan rolu**

SƏHİFƏ 7-də



**VI “Yüksəliş” müsabiqəsinə qeydiyyat başladı**

SƏHİFƏ 10-da



**Enerji sahəsində əməkdaşlıq müzakirə edilib**

SƏHİFƏ 10-da




**Borclanma dövrü bitir?**

SƏHİFƏ 14-də



**Son illərin ən rəqabətli mövsümü**

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi




# İlham Əliyev Mixay Popşoini qəbul edib

Prezident İlham Əliyev martın 6-da Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoini qəbul edib. Qəbula görə dövlət başçısına təşəkkür edən Mixay Popşoi Moldova Prezidenti Maya Sandunun salamlarını Prezident İlham Əliyevə çatdırıb.

Dövlət başçısı salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Maya Sanduya çatdırmağı xahiş edib. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində Moldovanın dövlət başçısı ilə görüşlərini və aparılmış müzakirələri məmnunluqla xatırlayıb.

Mixay Popşoi İranın pilotsuz uçuş aparatları ilə Azərbaycana qarşı törətdiyi hücumları Moldovanın qətiyyətlə qınadığını deyib, bu məsələdə ölkəmizlə həmrəy olduqlarını vurğulayıb. O, hücum zamanı xəsarət alanların tezliklə sağalmasını arzulayıb.

Xalqlarımız arasında dostluq münasibətlərinin mövcud olmasını məmnunluqla qeyd edən qonaq deyib ki, Moldovanın çətin günlərində Azərbaycanın dəstəyini həmişə xatırlayırlar və bunu yüksək qiymətləndirirlər.

Prezident İlham Əliyev nümayiş olunan mövqeyə görə təşəkkür edib.

Söhbət zamanı Azərbaycanın və Moldovanın daim bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədikləri məmnunluqla qeyd olundu, ikitərəfli münasibətlərimizin inkişafı, o cümlədən siyasi, iqtisadi-ticari, enerji və digər sahələrdə əməkdaşlığın dərinləşdiyi vurğulanıb, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsində roluna toxunulub. Bu xüsusda Mixay Popşoinin səfərinin uğurlu olacağına əminlik bildirilib.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, siyasi dialoqun intensivləşdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# DİPLOMATİK HEYƏTİMİZ İRANDAN ÇIXARILIR

Prezident İlham Əliyev İrandan diplomatik heyətin tam çıxarılmasına qərar verib. Bu proses həm Tehrandakı səfirlik, həm də Təbrizdəki baş konsulluğa şamildir.



Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Moldovanın Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoi arasında geniştərkibli görüş keçirilib. Nazirlər ikitərəfli siyasi dialoqun davam etdirilməsini, həmçinin iqtisadiyyat, enerji, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsini, eləcə də Birləşmiş Millətlər Təşkilatı və ATƏT də daxil olmaqla, beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətlərin əlaqələndirilməsini müzakirə ediblər. Daha sonra nazirlərin birgə brifinqi olub.

**"PREZİDENT İLHAM ƏLİYEVİN FİKİRLƏRİ AÇIQ MESAJDIR"**

Ceyhun Bayramov bildirib ki, Azərbaycan İrandan bütün diplomatik heyətini çıxarır. Onun sözlərinə görə, Prezident İlham Əliyev İrandan diplomatik heyətin tam çıxarılmasına qərar verib: "Bu proses həm Tehrandakı səfirlik, həm də Təbrizdəki baş konsulluğa şamildir. Hazırda bu istiqamətdə iş aparılır".

XİN başçısı bildirib ki, Prezident İlham Əliyevin fikirləri açıq bir mesajdır: "Dünən İran XİN rəhbəri ilə telefon danışığımızda məsələni müzakirə etdik. İran tərəfi məsələni ciddi şəkildə araşdırmağa söz verdi, biz də nəticələri gözləyirik".

C.Bayramov həmçinin bildirib ki, dövlət başçısı dron hücumu ilə bağlı müvafiq tapşırıqlar verib: "Artıq hadisə ilə bağlı diplomatik addımlar atılıb, nota verilib, həmkarımla telefon danışığımız olub. Artıq məsələ ilə bağlı İran tərəfindən araşdırmanın başladılması ümumi prosesdir. Azərbaycanın təhlükəsizlik tədbirləri Prezident İlham Əliyevin rəhbərliyi ilə ən yüksək səviyyədə həyata keçirilir. Regional gərginlik fonunda hərbi qüvvələrin hazırlıq səviyyəsi maksimuma çatdırılıb".

## 50-dən çox ölkə təxliyə üçün Azərbaycana müraciət edib

C.Bayramov qeyd edib ki, İranda vətəndaşları olan 50-dən çox ölkə təxliyə üçün Azərbaycana müraciət edib. Onun sözlərinə görə, bu müraciətlər Nazirlər Kabinetinə təqdim edilir və təxliyə cəmi bir neçə saata həyata keçirilir: "Yaxın Şərqdə hərbi eskalasiya fərqli risk faktorları yaradır. Azərbaycan Xarici İşlər Nazirliyinin bütün struktur bölmələri məsələ ilə bağlı ilk günlərdən gücləndirilmiş iş rejiminə keçib. Hətta ilk fürsətdə oradakı vətəndaşların təxliyəsi həyata keçirilir. Beş ölkə üzrə (BƏƏ, Səudiyyə Ərəbistanı, Qətər, Küveyt və Bəhreyn) təxminən 1000-ə yaxın müraciət daxil olub".

C.Bayramov həmçinin xatırladıb ki, martın 7-də Ciddədən Azərbaycan vətəndaşlarının növbəti təxliyəsi həyata keçiriləcək: "Martın 4-də Səudiyyə Ərəbistanının Ciddə şəhəri istiqamətində AZAL-ın xüsusi reysi ilə 209 nəfər təxliyə olunub. Onlardan 193-ü Azərbaycan vətəndaşı olub. Qətərdə qalan vətəndaşlarımız da var və buna görə martın 7-də Ciddədən növbəti təxliyə reysi planlaşdırılır. Bütövlükdə bütün proses nəzarət altındadır və aidiyyəti üzrə daim əlaqədəyik".

## Yaxın Şərqdəki vəziyyət müzakirə olunub

C.Bayramov bildirib ki, moldovalı həmkarı ilə də Yaxın Şərqdəki vəziyyəti qiymətləndiriblər. "Moldova Azərbaycanın iqlim diplomatiyasında bir çox təşəbbüslərinə fəal şəkildə qoşulub. Bugünkü müzakirəmizdə qonşu ölkələrlə bağlı proseslər barədə də məlumatlandırdım. Ermənistan-Azərbaycan münasibətləri, gözləntimiz barədə də həmkarıma məlumat verdim. Eləcə də Qarabağda bərpa-quruculuq və insanların qayıdışı məsələləri barədə də fikir mübadiləsi apardıq", - C.Bayramov bildirib. "Eyni zamanda Yaxın Şərqdəki vəziyyəti də qiymətləndirdik. Dünən İran tərəfindən Naxçıvan istiqamətində edilən dron hücumları, dörd Azərbaycan vətəndaşının xəsarət alması ilə bağlı da ona məlumat verdim", - XİN rəhbəri vurğulayıb. Ceyhun Bayramov Azərbaycan vətəndaşlarının Ukraynadan evakuasiyasında göstərilən dəstəyə görə moldovalı həmkarına təşəkkür edib.



**MOLDOVA İRANIN AZƏRBAYCANA HÜCUMLARINI PİSLƏYİR**

"Moldova İranın pilotsuz uçuş aparatları ilə Azərbaycan ərazisinə endirdiyi zərbələri pisləyir". Bunu isə Moldovanın xarici işlər naziri Mixay Popşoi Bakıda Azərbaycan XİN başçısı Ceyhun Bayramovla birgə mətbuat konfransında bəyan edib. Onun sözlərinə görə, Kişineu Naxçıvan Muxtar Respublikasında mülki infrastruktura hücumları və dinc əhaliyə vurulan ziyanı qətiyyətlə pisləyir. Nazir qeyd edib ki, Moldova Azərbaycan xalqı ilə tam həmrəyliyini ifadə edir, ölkənin suverenliyinə və ərazi bütövlüyünə dəyişməz dəstəyini təsdiqləyir.

# DOST MÜNASİBƏTƏ DÜŞMƏNCƏSİNƏ CAVAB

Ölkəmizin nümayiş etdirdiyi dost münasibətin müqabilində qarşı tərəfdən həyata keçirilən xain dron hücumu rəsmi Bakının kəskin reaksiyasına səbəb olub. Hadisədən dərhal sonra Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.




AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Martın 5-də İran ərazisindən uzaqdan idarəolunan partlayan döyüş başlığı ilə təchiz edilmiş pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Naxçıvan Muxtar Respublikasının mülki infrastruktur obyektlərinə qarşı hücum həyata keçirilib. Pilotsuz uçuş aparatlarından biri Naxçıvan Beynəlxalq Hava Limanının terminal binasına, digəri isə Babək rayonunun Şəkərabad kəndində yerləşən təhsil müəssisəsinin yaxınlığına düşüb. Mülki infrastruktura ciddi ziyan dəyməklə yanaşı dörd mülki şəxs də müxtəlif dərəcəli xəsarət alıblar.

### AZƏRBAYCAN DÖVLƏTİNƏ QARŞI TERROR AKTI

Ölkəmizin bu günlərdə nümayiş etdirdiyi dost münasibətin müqabilində qarşı tərəfdən həyata keçirilən bu xain hücum rəsmi Bakının kəskin reaksiyasına səbəb olub. Hadisədən dərhal sonra Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. Dövlət başçısı qarşı tərəfə ciddi xəbərdarlıq edib. Prezident İlham Əliyev məlum hücumu Azərbaycan dövlətinə qarşı terror aktı kimi dəyərləndirib: "Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir". Prezident qeyd edib ki, biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq: "Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin".

### "BİZİM GÜCÜMÜZÜ SINAMASINLAR"

Prezident İlham Əliyev bir daha bəyan edib ki, Azərbaycan nə o vaxt, nə də bu dəfə İrana qarşı olan əməliyyatlarda iştirak etmir və etməyəcək: "Bizim qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağımız var, nə də siyasətimiz buna imkan verir. Biz öz ərazi bütövlüyümüzü qoruyuruq və qorumuşuq. Necə ki, Ermənistan işğalına son qoymuşuq, istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar. Onların törətdiyi bu terror aktı bütün başqa çirkin amillərlə yanaşı, böyük nankorluq nümunəsidir. Son hadisələr baş verən kimi biz onlara xəbər göndərdik, başsağlığı verdik. Xarici işlər naziri mənim göstərişimlə həmkarı ilə danışdı. Mən onların səfirliyinə gedib başsağlığı vermək üçün öz mövqeyimi bildirdim. Halbuki məndən başqa heç bir dövlət başçısı İranın heç bir səfirliyinə getməyib. Yəni bunu qiymətləndirməmək, bunu yerə vurmaq, özlərini alçaq, nankorlar kimi aparmaq heç kimə şərəf gətirmir. Bu şərəfsizlər, bizə qarşı bu terror aktını törədənlər peşman olacaqlar. Bizim gücümüzü sınamasınlar. Bizim gücümüzü sınamaq istəyənlərin başı "Dəmir yumruq" vasitəsilə yarıldı. Bugünkü hadisə də eyni nəticəni hasil edəcək".

Dövlət başçısı qeyd edib ki, Silahlı Qüvvələrimiz - Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, digər bütün Xüsusi Təyinatlı Qüvvələr bir nömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı keçirməyə hazır olmalıdırlar. "Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim "Dəmir yumruğ"umuzu görəcək", - Prezident İlham Əliyev bildirib.





## İRAN QISA MÜDDƏTDƏ İZAHAT VERMƏLİDİR

Rəsmi Bakının ciddi xəbərdarlığından dərhal sonra İranın Xarici işlər naziri Abbas Əraqçı azərbaycanlı həmkarı Ceyhun Bayramovla əlaqə saxlayıb. Telefon danışığı zamanı Ceyhun Bayramov İran İslam Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisinə edilmiş dron hücumlarını qətiyyətlə pisləyib, bu hücumlarla bağlı qəti etirazını bildirib. Azərbaycan ərazisinə bu hücumların beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğunu, regionda gərginliyin artmasına xidmət etdiyini vurğulayıb. İran naziri Naxçıvan Muxtar Respublikası dron hücumları ilə bağlı narahatlığını ifadə edib. İran tərəfinin və hərbçilərin bu hadisə ilə bağlı araşdırma başlatdığını bildirib. Əraqçı yaralanan mülki şəxslərə şəfa diləyib.

İran tərəfindən hücumla bağlı üzr istənilməsini, araşdırmaların nəticələrinə dair qısa müddət ərzində izahat verilməsini, bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri tədbirlər görülməsini gözlədiyimiz diqqətə çatdırılıb.

### YÜK AVTOMOBİLLƏRİNİN HƏRƏKƏTİ DAYANDIRILDI

Qeyd edək ki, məlum terror aktından sonra dövlət səviyyəsində bir sıra önləyici qərarlar qəbul olunub. Azərbaycan-İran dövlət sərhədindən yük avtomobillərinin hərəkətinin dayandırılması ilə bağlı qərar qəbul edilib. Terror aktı ilə bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq) və 270-1.3-cü (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər) maddələri ilə cinayət işi başlanaraq ibtidai araşdırmanın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə olunub.

"Azərbaycan Hava Yolları" QSC Bakıdan Naxçıvana və əks istiqamətdə sərnişindaşımanı alternativ yolla həyata keçirir. Son hadisələrlə əlaqədar olaraq, Bakı-Naxçıvan-Bakı marşrutu üzrə planlaşdırılan bütün reyslər ləğv olunub. Azərbaycan vətəndaşları üçün Bakıdan Naxçıvana nəqliyyat əlaqəsinin təmin edilməsi məqsədilə Bakıdan Türkiyənin İğdır şəhərinə və əks istiqamətdə aviareyslər təyin edilib. Sərnişinlərin İğdır aeroportundan Naxçıvana və əks istiqamətə daşınması üçün xüsusi avtobuslar təşkil olunub.



# BEYNƏLXALQ BİRLİKDƏN AZƏRBAYCANA DƏSTƏK



**Dünya ölkələri Naxçıvanda mülki obyektlərin İran dronları tərəfindən hədəf alınmasını kəskin şəkildə pisləyib. Bu məsələdə Azərbaycana tam dəstək ifadə olunub.**

F.ABASOĞLU

Azərbaycan ərazisinin İrana məxsus pilotsuz uçuş aparatları vasitəsi ilə hücuma məruz qalması, xüsusilə də məktəb və hava limanı kimi mülki obektlərin hədəfə alınması kəskin beynəlxalq etirazlara səbəb olub. Dünyanın bir çox ölkələri bu məsələdə Azərbaycana dəstək ifadə edərək, məlum hücum aktının beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğunu bəyan ediblər. Bu bəyanatlar həm də Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və güclü diplomatik əlaqələrinin göstəricisi kimi də dəyərləndirilir.

### TÜRKİYƏ VƏ PAKİSTANDAN DƏSTƏK

Təbii ki, məlum terror aktına ilk reaksiya verən ölkələrdən biri dost və qardaş Türkiyə olub. Prezident Rəcəb Tayyib Ərdoğan Naxçıvana edilən pilotsuz təyyarə hücumunu pisləyib. O, azərbaycanlı həmkarı Prezident İlham Əliyevlə bu məsələni müzakirə etdiyini bildirib. “Qardaşım İlham Əliyevlə söhbətimdə Naxçıvan Muxtar Respublikasına edilən hücumdan təəssüfləndiyimi bildirdim və onu pislədim”, - deyə Türkiyə Prezidenti qeyd edib.

Türkiyənin Xarici işlər naziri Hakan Fidan isə azərbaycanlı həmkarı Ceyhun Bayramovla danışaraq Ankaranın dəstəyini ifadə edib. Həmçinin, Türkiyənin müvafiq qurumları da Naxçıvana hücumla bağlı kəskin bəyanatlarla çıxış ediblər.

Baş nazir Məhəmməd Şahbaz Şərif özünün X sosial media hesabında yazıb ki, Azərbaycan rəhbərliyinin və xalqının yanında olan Pakistan gərginliyi daha da artıran, regional sülh və sabitliyə xələl gətirən hərəkətləri pisləyir. “Qardaş ölkə Azərbaycana olan son hücumlarla bağlı ciddi narahatlığımızı bildiririk”, - deyə paylaşımda qeyd olunub.

### “BU HÜCUM AZƏRBAYCANIN SUVERENLİYİNİN AÇIQ ŞƏKİLDƏ POZULMASIDIR”

Avropanın bir çox ölkəsi də Naxçıvanda mülki obyektlərin hədəfə alınmasını hiddətlə qarşılayıb.

Litvanın xarici işlər naziri Kestutis Budris İranın Naxçıvan Muxtar Respublikasında mülki infrastruktura qarşı həyata keçirdiyi pilotsuz uçuş aparatları ilə hücumu qəti şəkildə pislədiklərini bildirib. XİN başçısı ölkəsinin Azərbaycanla həmrəy olduğunu vurğulayıb.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Ferqus Auld özünün “X” sosial media hesabında yazıb ki, iki İran dronunun Naxçıvana zərbə endirməsi tamamilə qəbuledilməzdir. “Böyük Britaniya Azərbaycanın təhlükəsizliyini təhdid edən istənilən hərəkəti qətiyyətlə pisləyir”, - deyə səfir bildirib.

Fransa bu hadisə qarşısında Azərbaycanla tam həmrəy olduğunu vurğulayıb. Bəyanatda qeyd olunub ki, Naxçıvan Beynəlxalq Hava Limanına qarşı həyata keçirilmiş dron hücumu Azərbaycanın suverenliyinin və beynəlxalq hüququn açıq şəkildə pozulmasıdır.

İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli İranın Naxçıvan hava limanına qarşı dron hücumunu ən sərt şəkildə pisləyib: “Bu çox ciddi hadisəyə görə Azərbaycan Hökuməti və xalqı ilə tam həmrəy olduğumu bildirirəm. Mülki infrastrukturu hədəfə almaq qəbuledilməzdir, məsuliyyətsiz və cinayətkar bir hərəkətdir. Bu, İranın son günlərdə Körfəzdə və regionda həyata keçirdiyi terror hücumları seriyasına əlavə olaraq, beynəlxalq hüququn hər bir qaydasına məhəl qoymadan infrastruktura və mülki əhaliyə qarşı qəsdən raket və dronlar atmasıdır”.

## KÖRFƏZ ÖLKƏLƏRİ HÜCUMU KƏSKİN ŞƏKİLDƏ QINAYIB

Azərbaycan kimi İranın raket və dron hücumlarına məruz qalan Körfəz ölkələri də Naxçıvana həyata keçirilən terror aktını kəskin qınayıblar.

Martın 5-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti İranın pilotsuz uçuş aparatları ilə Azərbaycan ərazisinə hücumunu pisləyib. Şeyx Məhəmməd bin Zayed Al Nəhyan İranın ölkəsinə raket hücumları zamanı dövlətimizin başçısı tərəfindən BƏƏ-yə göstərilən dəstəyə və bu hücumu qınayan mövqeyinə görə bir daha minnətdarlığını bildirib.

Qətər Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib ki, Türkiyənin ballistik raketlə və Azərbaycanda isə hava limanının İran PUA-ları ilə hədəf alınması düşmənçilik hərəkətləridir. Bəyanatda bu hərəkətlər təhlükəli eskalasiya və dövlətlərin suverenliyinin açıq şəkildə pozulması kimi qiymətləndirilib, həmçinin regionun təhlükəsizliyi və sabitliyi üçün birbaşa təhdid hesab edilib..

Səudiyyə Ərəbistanı Krallığı da İranın Türkiyə Respublikasını və Azərbaycan Respublikasını hədəf almağa cəhd etməsini qətiyyətlə pisləyib və bunu kəskin şəkildə qınayıb. Səudiyyə Ərəbistanı XİN bu cür cəhdləri beynəlxalq qanunlara və qəbul olunmuş beynəlxalq normalara zidd olan düşmənçilik davranışı adlandırıb. Nazirlik bəyanatında vurğulayıb ki, hər iki ölkəyə qarşı edilən bu qorxaq cəhdlər heç bir halda əsaslandırıla bilməyən düşmənçilik mövqeyini göstərir.

Küveyt də İranın Türkiyə və Azərbaycanı hədəf almasını qətiyyətlə pisləyib və bunu sərt şəkildə qınayıb. Küveyt XİN bu cür cəhdləri beynəlxalq qanunların və BMT nizamnaməsinin açıq şəkildə pozulması hesab edir. Nazirlik, həmçinin Küveyt Dövlətinin Türkiyə və Azərbaycan ilə tam həmrəy olduğunu vurğulayıb.

### TÜRK DÖVLƏTLƏRİ AZƏRBAYCANIN YANINDADIR

Türk dövlətləri də bu məsələdə Azərbaycanın yanında olduqlarını açıq ifadə ediblər. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Naxçıvan şəhərindəki hava limanına İranın pilotsuz uçuş aparatlarının hücumunu qətiyyətlə pisləyib. Dövlət başçısı baş verənləri qardaş və müttəfiq Azərbaycan dövlətinə qarşı akt kimi qiymətləndirib.

Martın 5-də Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Prezident İlham Əliyevə zəng edib. O, İranın pilotsuz uçuş aparatları vasitəsilə Azərbaycana qarşı törətdiyi hücumları qətiyyətlə qınayıb, Özbəkistanın Azərbaycana tam dəstəyini ifadə edərək, ölkəsinin hər zaman Azərbaycanın yanında olduğunu vurğulayıb. Prezident İlham Əliyev telefon zənginə və nümayiş etdirilən dəstəyə görə Özbəkistan Prezidentinə təşəkkürünü bildirib.

Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov, Qazaxıstanın xarici işlər naziri Yermek Koşerbayev, Qırğız Respublikasının xarici işlər naziri Ceenbek Kulubayev Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vuraraq hücumlardan dərin narahatlıq ifadə ediblər.



# MÜHARİBƏNİN DOĞURDUĞU RİSKLƏR

**Azərbaycan da İranın yaxın qonşusu olaraq bu ölkədə yaşanan proseslər fonunda müəyyən risklərlə üz-üzədir. Hazırda bu risklər iqtisadiyyatda və turizm sahəsində özünü daha qabarıq göstərir.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Regionda baş verən hərbi-siyasi gərginliklər təkcə siyasi müstəvidə deyil, həm də iqtisadi və sosial sahələrdə müxtəlif təsirlərə səbəb olur. Xüsusilə İran və Azərbaycan arasında coğrafi yaxınlıq və iqtisadi əlaqələr fonunda müharibə ölkəmizə təsirsiz ötüşmür. Enerji bazarlarında qiymət dəyişkənliyi müsbət imkanlar yaratsa da, turizm, ticarət dövriyyəsi və təhlükəsizlik mühitində risklərin artması ehtimalı gündəmdədir.

### "İRAN DAHA ÇOX QAZANIR"

Millət vəkili Vüqar Bayramov deyir ki, Azərbaycan ilə İran arasında ticarət dövriyyəsi 2025-ci ildə əvvəlki ilə nisbətən cüzi dəyişərək 644 milyon dollar olub, 2024-cü ildə bu göstərici 647 milyon dollar idi: "Rəqəmlər ölkələr arasındakı ticarət əlaqələrinin kiçik göstəricilərlə ifadə olunmadığını göstərsə də, dövriyyənin strukturu fərqli təəssürat yaradır. Belə ki, ticarət dövriyyəsinin əhəmiyyətli hissəsi İrandan idxal hesabına formalaşır. 2025-ci ildə 644 milyon dollarlıq dövriyyənin 624 milyon dolları İrandan idxal hesabına formalaşıb. Yəni, ümumi ticarət dövriyyəsinin cəmi 3 faizi Azərbaycanın İrana ixracıdır. Ötən il İranla ticarətdə 604 milyon dollarlıq mənfi saldo yaranıb. Yəni, İran Azərbaycan ilə ticarət əlaqələrindən daha çox qazanır. Bu isə o deməkdir ki, İran ilə ticarət əlaqələrində texniki çətinliklər davam etsə, bunun Azərbaycan ixracına xüsusi təsiri olmayacaq".

### "BƏZİ MƏHSULLARIN GƏTİRİLMƏSİNDƏ ÇƏTİNLİK YARANACAQ"

Millət vəkili bildirir ki, Azərbaycana İrandan tikinti materialları, kənd təsərrüfatı məhsulları, eləcə də quru meyvələr, yüngül sənaye məhsulları, xüsusən də məişətdə istifadə edilən sənaye məhsulları idxal edilir. Əgər İranın ixrac imkanları daha uzun müddət məhdudlaşarsa, o zaman cənub qonşumuzda istehsal edilən bəzi məhsulların gətirilməsində çətinlik yarana bilər: "2025-ci ildə Azərbaycan İrandan portağal (14.3 milyon dollar), təzə və ya qurudulmuş kartof (13.6 milyon dollar), qida üçün yararlı duz və yodlaşdırılmış məhsullar (11.8 milyon dollar), badımcan (9.4 milyon dollar), peçenye (8.8 milyon dollar), kərə yağı (8.7 milyon dollar), bibər, o cümlədən capsicum və pimenta növünün barı (8.3 milyon dollar), təzə və ya qurudulmuş xurma (6.4 milyon dollar), soğan (6.1 milyon dollar), yerkökü (5.7 milyon dollar), kələm (4.5 milyon dollar), pendir (4.1 milyon dollar), kivi (3.1 milyon dollar) və digər ərzaq məhsulları idxal edib. Bununla yanaşı, idxalda əsas ağırlıq tikinti və sənaye məhsullarının payına düşüb. Sözügedən dövrdə İrandan azot (84.8 milyon dollar), arqon (48.7 milyon dollar), mərmərin dənəvərləri, qırıntıları və tozu (20.1 milyon dollar), abidə və tikinti daşlarının dənəvərləri, qırıntı və tozu (18.9 milyon dollar), təbii barium sulfatı (12.5 milyon dollar), ağ portlandsement (9.7 milyon dollar), hipoxloritlər və digər qeyri-ərzaq məhsulları idxal olunub. Göründüyü kimi, İrandan ərzaq məhsulları ilə müqayisədə daha böyük məbləğlərdə sənaye və tikinti məhsulları idxal edilir. Bu baxımdan xüsusilə ərzaq məhsulları üzrə idxalın daha qısa müddətdə diversifikasiyasına ehtiyac var. İrandan idxal azalacağı halda bunun Azərbaycanın istehlak bazarının tarazlığına ciddi təsir edəcəyi gözlənilmir".





## "AZƏRBAYCAN TURİZMİ ÜÇÜN MÜƏYYƏN RİSKLƏR YARADA BİLƏR"

Müharibənin ölkənin turizm sektoruna təsirinə gəldikdə isə, turizm üzrə ekspert Ceyhun Aşurov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, Yaxın Şərqdə baş verən gərginliklər Azərbaycan turizmi üçün müəyyən risklər yarada bilər: "İran və İsrail son illərdə Azərbaycana turist göndərən əsas bazarlardan hesab olunur. Statistik göstəricilərə görə, 2024-cü ildə Azərbaycana İrandan təxminən 210 min turist səfər edib, 2025-ci ildə isə bu rəqəm 209 min nəfər olub. İsraildən gələn turistlərin sayı isə 2024-cü ildə təxminən 29 min nəfər olduğu halda, 2025-ci ildə 69 min nəfərə qədər artıb. Bu dinamika hər iki ölkənin Azərbaycan turizmi üçün mühüm və sürətlə inkişaf edən bazarlardan olduğunu göstərir. Lakin İran və İsrail arasında hərbi münaqişənin baş verməsi bu bazarlardan gələn turist axınına mənfi təsir göstərə bilər. Müharibə şəraitində təhlükəsizlik risklərinin artması, həmçinin iqtisadi və sosial qeyri-müəyyənliklər səbəbindən vətəndaşların xaricə səyahət etmə ehtimalı azalır. Belə hallarda insanların ilk qərarı səyahət planlarını təxirə salmaq və daha təhlükəsiz ərazilərdə qalmaq olur. Nəticədə Azərbaycana səfər edən turistlərin sayında azalma müşahidə oluna bilər".

### "TURİZM SEKTORUNDA BƏRPA PROSESİ LƏNGİYƏCƏK"

Mütəxəssis bildirir ki, regionda gərginliyin artması hava məkanlarının qismən bağlanmasına və ya uçuş marşrutlarının dəyişdirilməsinə səbəb olub: "Bu isə təkcə İran və İsraildən deyil, həm də Körfəz ölkələrindən Azərbaycana gələn turist axınına mənfi təsir göstərə bilər. Çünki bir çox beynəlxalq uçuş marşrutları məhz bu region üzərindən həyata keçirilir. Belə bir vəziyyət Azərbaycanın turizm sektorunda pandemiyadan sonra başlayan bərpa prosesini də ləngidə bilər. Turizm sənayesinin sabit inkişafı üçün regionda siyasi sabitlik və təhlükəsizlik mühüm amillərdən biri hesab olunur".

### "DAXİLİ TURİZM REGİONLARDAKI BOŞLUĞU DOLDURA BİLƏR"

Həmsöhbətimiz bildirir ki, hazırda Bakı və regionlarda turist azlığı ilə əlaqədar hotellərdə və xidmət sektorunda qiymətlərin nisbətən aşağı olduğu müşahidə edilir: "Daxili turizmə tələbatın artacağı gözlənilir. Xüsusilə bayram dövrlərində daxili turlara marağın yüksəlməsi regionlarda xidmət qiymətlərinə müəyyən dərəcədə təsir göstərə bilər. Daxili turizmin inkişafı xarici turist itkisini tam şəkildə kompensasiya etməsə də, regionlarda bu boşluğu qismən dolduracaq. Lakin paytaxt Bakıda hotellərin doluluq səviyyəsinə mənfi təsirlər də müşahidə oluna bilər".



Ceyhun Aşurov

# KÖRFƏZ ÖLKƏLƏRİ İKİ OD ARASINDA



İran-İsrail-ABŞ müharibəsinin miqyası genişlənir. Xüsusilə də Körfəz ölkələrinə zərbələrin miqyası artır. Artıq hədəfdə tək hərbi obyektlər yox, həm də enerji obyektləri, bahalı hotellərdir.



AZƏR NURİYEV

İran ətrafında yaşanan gərginlik davam edir. ABŞ və İsrail İranı aramsız bombalayır. İran da buna qarşılıq verməyə çalışır. Müharibə arealı artıq Kiprə qədər çatıb. Fevralın 28-dən başlayan hərbi əməliyyatların ciddi ziyan vurduğu ölkələr sırasında Körfəz dövlətləri də var. ABŞ-nin hücumlarına cavab olaraq İran da Körfəz ölkələrinə zərbələr endirir. İndi hər kəsi bir sual düşündürür - Fars körfəzi ölkələri İranla müharibəyə girəcəkmi? Türkiyənin xarici işlər naziri Hakan Fidanın dediyi kimi, İranın hücum etdiyi ölkələr əks-hücum hüquqlarından istifadə etsə, müharibənin cəbhəsi ikitərəfli genişlənəcək. "Bu isə risklidir, çünki İranın hücumuna məruz qalan ölkələrdə hədəf yalnız ABŞ-nin bazaları deyil, enerji obyektləri də atəşə tutulur", - o bildirib. H.Fidan əlavə edib ki, savaşın daha geniş coğrafiyaya yayılma ehtimalı Türkiyəni də narahat edir.

Körfəz Əməkdaşlıq Şurası bir neçə dəfə İranın hücumlarını pisləyib. BƏƏ-nin Xarici İşlər Nazirliyi isə İranı arxayın edib ki, regionda mövcud gərginlik dövründə torpaqlarına atılan mərmilərə baxmayaraq, öz ərazisindən və ya hava məkanından İrana qarşı heç bir hücum üçün istifadəyə icazə verməyib. Xarici İşlər Nazirliyinin bəyanatında o da qeyd olunur ki, münaqişənin başlanğıcından bəri BƏƏ İrandan mindən çox hücuma məruz qalıb.



Hakan Fidan

## DƏBDƏBƏLİ HOTELLƏR, LİMANLAR, SƏNAYE ZONALARI...

Reallıq odur ki, ABŞ və İsrailin İrana hücumlarından və onun cavab zərbələrindən sonra yalnız Körfəz ölkələrindəki ABŞ hərbi bazaları deyil, həm də mülki obyektlər zərər çəkir və onlar da sakit durmaq fikrində deyillər. Dəbdəbəli hotellər, limanlar, şəhər məhəllələri, sənaye zonaları, hava limanları və neft infrastrukturu İranın raket zərbələrinin hədəfinə çevrilib. Maraqlıdır ki, hərbi əməliyyatlara qədər ABŞ bazalarının və ya qoşunlarının yerləşdirilməsi, eləcə də ABŞ-dən silah alınması Körfəz ölkələri tərəfindən hücumun qarşısını almağın ən yaxşı yolu kimi qəbul edilirdi. İndi isə bu bazalar artıq ölkələr üçün təhlükə mənbəyinə çevrilib.

### "ÖZÜNÜZƏ GƏLİN, REALLIĞA QAYIDIN"

BƏƏ-nin keçmiş xarici işlər naziri, dövlət başçısının fəaliyyətdə olan müşaviri Ənvər Qarqaş İrana müraciət edib: "Özünüzə gəlin, reallığa qayıdın və qonşularınızla ağıllı və məsuliyyətli davranın, təcrid və eskalasiya dairəsi genişlənməzdən əvvəl... Sizin müharibəniz qonşularla deyil və bu eskalasiya vasitəsilə siz İranı regionda əsas təhlükə mənbəyi hesab edənlərin nöqteyi-nəzərini təsdiqləyirsiniz".

İran isə bəyan edir ki, onun Fars körfəzi ölkələri, daha dəqiq desək qonşularla problemi yoxdur. "İslam Respublikası ABŞ-nin bazaları olan əraziləri hədəf alır", - deyə xarici işlər naziri Abbas Əraqçı bildirib. Lakin İran hərbçiləri başqa fikirdədirlər. Məsələn, İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) generalı Ebrahim Cabbari ABŞ və İsrailin hücumları dayanmayacağı təqdirdə Yaxın Şərqin bütün iqtisadi mərkəzlərinə zərbələr endirməklə hədələyib. O qeyd edib ki, İran Hörmüz boğazını bağlamaqla artıq iqtisadiyyata təzyiq göstərir. "Biz Hörmüz boğazını bağlamışıq. İndi neftin qiyməti 80 dolları ötür və tezliklə 200 dollara çatacaq", - E.Cabbari bildirib. Proqnozlara görə, Hörmüz boğazının qısamüddətli blokadası Brent neftinin qiymətinin barel üçün 100 dolları aşmasına gətirib çıxara bilər. Bu ssenaridə dünya iqtisadiyyatı artımın yavaşlaması, inflyasiyanın sürətlənməsi və mərkəzi bankların pul-kredit siyasətinin sərtləşməsi ilə üzləşəcək.



Abbas Əraqçı

## FARS KÖRFƏZİNDƏ UZUNMÜDDƏTLİ MÜHARİBƏ EHTİMALI

Qərb analitiklərinin proqnozları belədir ki, regionun bütün ölkələrinin silahlı qüvvələri olsa da, bu dövlətlərin öz ordularından istifadə edərək Tehrana qarşı döyüş əməliyyatlarına qoşulacağı gözlənilmir. Bunun əvəzinə onlar ABŞ-yə öz ərazilərinə və ya hava məkanlarına daha geniş giriş imkanı verə bilərlər. "Bu ölkələrin orduları birbaşa müharibəyə girə bilərmi? Bu mümkündür, lakin hücum zərbələri endirməkdənsə, özünümüdafiə daha çox ehtimaldır", - Londondakı Kral Kollecinin (KCL) Təhlükəsizlik Tədqiqatları Məktəbinin baş müəllimi Andreas Kriq bildirib. O deyib ki, bu ölkələr ilk növbədə öz müdafiə qabiliyyətlərini yaxşılaşdıracaqlar.

### 56 MİLYARD DOLLARLIQ ZƏRƏR

Yeri gəlmişkən, Yaxın Şərqin ən çox ziyan çəkən sektoru turizmdir. Turizm sektoru ABŞ və İsrailin İrana qarşı birgə əməliyyatı səbəbindən təxminən 56 milyard dollar məbləğində zərər görə bilər. Bu barədə "Al Jazeera" "Tourism Economics" analitik təşkilatının proqnozuna istinadən məlumat yayıb. Təşkilatın hesablamalarına görə, əgər münaqişə tənzimlənməzsə, 2026-cı ildə regiona xarici turist axını 11-27% azala bilər. Ən neqativ ssenarinin reallaşacağı təqdirdə, region əvvəlki gözləntilərlə müqayisədə 23 milyondan 38 milyona qədər xarici turist itirmək riski ilə üzləşir. Maliyyə nəticələri də əhəmiyyətli olacaq: turist xərclərinin azalmasından yaranan itkilər 34 milyard dollardan 56 milyard dollara qədər təşkil edə bilər.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az




# AZƏRBAYCANIN ARTAN ROLU

Hazırda Azərbaycan qazının istehlakçısı olan ölkələrin sayı 16-ya çatıb. Bu göstərici üzrə Azərbaycan boru kəmərləri vasitəsilə qaz tədarük etdiyi ölkələrin sayına əsasən dünyada birinci yerdədir.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Ukrayna və İran ətrafında yaşanan gərginliklər fonunda dünyada enerji təhlükəsizliyinin təmini yenidən ciddi şəkildə müzakirə olunmaqdadır. Belə bir vəziyyətdə Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasları xüsusilə diqqət çəkir. Azərbaycanın Avropanın və digər bölgələrin enerji təhlükəsizliyində artan roluna vurğu edilir.

### AZƏRBAYCAN QAZINI ALAN ÖLKƏLƏRİN SAYI 16-YA ÇATIB

Azərbaycan mövcud gərginliklər fonunda enerji təhlükəsizliyinin təminində daha mühüm aktor kimi çıxış etməyə başlayır. Bu fakt Bakıdakı müzakirələrdə bir daha qeyd olundu. Tədbirdə çıxış edən Prezident İlham Əliyev Azərbaycanın mövcud imkanları və gələcək planları ilə bağlı vizyonunu ortaya qoydu. Dövlət başçısının sözlərinə görə, hazırda Azərbaycan qazının istehlakçısı olan ölkələrin sayı 16-ya çatıb. Bu göstərici üzrə Azərbaycan boru kəmərləri vasitəsilə qaz tədarük etdiyi ölkələrin sayına əsasən dünyada birinci yerdədir: "Digər mühüm hadisə qaz təchizatımızın artıq Avropa hüdudlarından kənardakı istiqamətlərə də çatması olmuşdur. İlk dəfə olaraq Suriyaya qaz tədarükünə başlamışıq ki, bu da Suriya xalqına mövcud olan kəskin elektrik enerjisi qıtlığının azaldılmasında yardım göstərmək məqsədi daşıyır".

### AVROPA BAZARINDA MÖVCUDLUĞU GENİŞLƏNDİRMƏK PLANLARI

Gələcək planlara gəldikdə isə, Azərbaycan Avropanın enerji bazarında mövcudluğunu genişləndirmək niyyətindədir. Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlanılıb. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Prezident çıxışı zamanı Azərbaycanın əlavə ehtiyatlara malik olduğunu, qaz ixracını artırmaq potensialının mövcudluğunu bir daha diqqətə çatdırıb. Bununla belə, Azərbaycanın Avropa enerji bazarındakı planları tək qaz ixracı ilə də məhdudlaşmır. Burada yaşıl enerji gündəliyi xüsusi yer tutur. Azərbaycanın bu sahədə də böyük imkanlara malik olduğunu deyən Prezident İlham Əliyev bildirib: "Artıq ötürücü xətlər mövcuddur, lakin daha çox ötürücü xətlər olacaq. Biz bu məsələ üzərində işləməliyik. Biz enerji kabelləri - Azərbaycandan Avropaya Qara dənizin dibi ilə gedən enerji kabeli və Mərkəzi Asiyadan Azərbaycana gələn enerji kabeli üzərində birlikdə işləməliyik. Hər iki müqavilə imzalanıb və bir layihədə iqtisadi-texniki əsaslandırma tamamlanmaq üzrədir, digər layihədə isə bu iş davam edir. Bütün bu layihələrin reallaşacağı zaman onlar çox dayanıqlı olacaq və deyərdim ki, bir çox ölkələrin enerji dəhlizləri üçün ekzistensial əhəmiyyət kəsb edəcək. Alternativ enerji ilə bağlı planlarımız artıq imzalanmış müqavilələrə əsaslanır".

### TƏK İXRACATÇI YOX, HƏM DƏ İNVESTOR

Azərbaycan istər qonşu ölkələr, istərsə də Avropada tək ixracatçı yox, həm də enerji sahəsi üzrə investor kimi çıxış etməyə başlayıb. Bu yaxınlarda ölkəmiz Türkiyədə 870 meqavat gücündə ən böyük elektrik stansiyalarından birini əldə edib. Həmçinin Serbiya ilə 500 meqavatlıq elektrik stansiyasının inşasına dair müqavilə imzalanıb. Prezidentin də qeyd etdiyi kimi, bizim enerji təhlükəsizliyinə töhfəmiz yalnız öz sərhədlərimizlə, Cənub Qaz Dəhlizi ilə məhdudlaşmır: "Həmçinin bizim üçün mühüm nailiyyətlər, mühüm amillər arasında İtaliyada ümumi emal qabiliyyəti 10 milyon ton olan 2 neftayırma müəssisəsinin əldə olunması var. Əgər Egey dənizinin Türkiyə sahillərində artıq sahib olduğumuz 12 milyon tonluq neftayırma müəssisəsini də əlavə etsək, ümumilikdə Aralıq və Egey dənizlərində 22 milyon ton neftayırma potensialımız olacaq ki, bu da öz növbəsində sözsüz ki, neft məhsullarının davamlı təchizatını təmin etməyə kömək edəcək və minlərlə yanacaqdoldurma stansiyası bu razılaşmanın bir hissəsidir".

## "Aİ AZƏRBAYCAN QAZININ ETİBARLI MÜŞTƏRİSİ OLARAQ QALACAQ"

Azərbaycanın enerji təhlükəsizliyinin təminində artan rolunu elə Avropa İttifaqı rəsmiləri də etiraf edirlər. Bakıdakı tədbirlərdə çıxış zamanı komissar Dan Yorgensen qeyd edib ki, 2020-ci ildə Azərbaycan qazı Cənub Qaz Dəhlizi ilə Avropaya çatdırılıb: "2022-ci ildə bu dəhlizin strateji əhəmiyyəti tam aydın şəkildə üzə çıxdı. Rusiya təcavüzkar müharibəsinə başladı, enerjini silaha çevirdi və Avropa İttifaqı öz enerji təchizatını şaxələndirmək qərarına gəldi. Rusiyadan gələn enerjini əvəz etmək üçün biz ən etibarlı və inanılan tərəfdaşlarımıza üz tutduq və Azərbaycan onların arasında əsas götürüldü. Həmin vaxtdan etibarən biz Cənub Qaz Dəhlizi vasitəsilə təbii qazın təchizatını xeyli artırdıq. 2020-ci ilin sonundan Xəzərdə hasil edilən qazın 50 milyard kubmetrdən çox həcmi Trans-Adriatik boru kəməri ilə artıq Avropaya çatdırıldı. Xəzər qazının köməyi ilə Avropa İttifaqının Rusiya qazından asılılığı 2022-ci ildəki ümumi idxalda 45 faizdən 2025-ci ildə 12 faizə düşdü". Aİ rəsmisinin sözlərinə görə, Avropanın Rusiya qazından asılılığını davamlı şəkildə azaltdığı dövrdə Azərbaycanla tərəfdaşlığın vacibliyi yalnız artacaq: "Azərbaycanın qazı, qaz təchizatı Avropa İttifaqının enerji təhlükəsizliyinin mühüm sütunu olaraq qalacaq. Öz növbəsində, Avropa İttifaqı yaxın gələcəkdə Azərbaycan qazının etibarlı müştərisi olaraq qalacaq və Azərbaycan iqtisadiyyatında struktur transformasiyaya təkan verəcək".

Beləliklə, Azərbaycan rəhbərliyinin uzaqgörən və düşünülmüş siyasəti ölkəmizin beynəlxalq aləmdəki rolunu daha da artırır.

GƏLƏN İL PEDAQOJİ FƏALİYYƏTİNİN 60 İLİ TAMAM OLACAQ XALQ ARTİSTİ ŞƏFİQƏ EYVAZOVA İLƏ MARAQLI SÖHBƏT

# "SEVİNİRƏM Kİ, YADDAŞLARDA GÖZƏL İFAMLA QALMIŞAM"





SÖHBƏTLƏŞDİ
TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

**Xalq artisti, Milli Konservatoriyanın professoru Şəfiqə Eyvazova:** "Deyirlər ki, qadınlar arasında ilk solist olmuşam, xeyr, mən kişilər arasında ilk solist qadın oldum. Məndən sonra qızlar kamança sinfinə yazıldı. Ona görə deyirlər ki, Şəfiqə qızlar sülaləsi yetişdirdi".

8 Mart onun üçün təkcə Qadınlar bayramı deyil, həm də doğum günüdür. Gələn il qeyd edəcəyi 80 illik yubileyi üçün bu günün özəllikləri də çoxdur. İllər onu təkcə tanınan kamança ifaçısı kimi sevdirməyib, həm də çox musiqiçiyə örnək ola biləcək şöhrətli bir ömür yaşadıb.

Xalq artisti, Milli Konservatoriyanın professoru Şəfiqə Eyvazova ilə bir illik cəhdlərdən sonra baş tutan müsahibəmiz də elə bu özəl günə təsadüf etdi.

"Sizi bir az incitdim, amma şükür Allaha ki, nəhayət razılaşdıq" - deyə Xalq artisti həyat yolundan danışdı

> *İndi də barmağımdan süzülən musiqiləri tələbələrə aşılamaqda davam edirəm. Həmişə deyirəm ki, ölüb gedəcəyəm, niyə bunu uşaqlardan gizlədim?*

### KLASSİKA İLƏ ÜRƏYİN BİRLİYİ

● **Şəfiqə xanım, internet materiallarında doğum tarixiniz 9 mart kimi qeyd olunub. Özünüz isə bu tarixin 8 mart olduğunu deyirsiniz. Özünüzdən eşidək, hansı daha dəqiqdir?**

● Mən 8 martda doğulmuşam. Anam da bunu təsdiqləyir. Həyətimizdə kirayə yaşayan rus qadın da "sən 8-ində doğulmusan. Hətta anana da, sənə də o gün hədiyyə almışdım" deyirdi. Biz – səkkiz uşaq hamımız xəstəxanada yox, evdə anadan olmuşuq. Sadəcə, bilməyiblər, təcili yardım anadan olan kimi yox, səhəri gün çağırılıb. Ona görə doğum tarixim 9 mart kimi qeyd olunub.

● **Yaxşı yadımdadır, uşaq idim, həmişə ailəliklə televizorda verilən konsertlərdə ifanızı izləyirdik. Valideynlərim də, digər böyüklər də: "Bu ifaçı çox ağır təbiətli, abırlı qadındır" deyirdilər. Bu xüsusiyyət doğulub böyüdüyünüz "Dağlı məhəlləsi"nin adət-ənənəsindən qaynaqlanırdı, yoxsa ailədən?**

● Hər ikisinin rolu vardı. Anamın xalası oğlu aşıq olub, Xızıda el şənliklərində oxuyub. Anamın babası Çıraqəli kişi də saz çalıb, qoşmaları, şeirləri olub. Yaxşı ki, Firudin Qurbansoy onun yazdıqlarını arxivdən götürərək kitaba salıb. Çıraqəli babam Mikayıl Müşfiqlə dayıoğlu-bibioğlu olub. Görünür, mənə, qardaşıma və bacıma musiqi qabiliyyəti və sevgisi də nəsildən gəlib. Bir qardaşım 13 yaşından qarmon çalır. Bacım da 25 il qadın toylarında ifa edib. Digər qardaşım isə Əməkdar artist, ud ifaçısı Yasəf Eyvazovdur. Mənim musiqi taleyim bir az qəribə olub. Qohumlar deyirdi ki, qız nədir, kamança nədir. Bu barədə başım çox çəkib... "Dağlı məhəlləsi" idi. Ancaq atam heç kimin fikrinə qulaq asmadı. Uşaqlar öyrənmək üçün altı ay kamançaya gedir. Mən isə bir aya öyrəndim. Bir aydan sonra müəllimim dedi ki, bu qız mənim sinfimdə olacaq.

● **Yeri gəlmişkən, o vaxt Habil Əliyev kamanı ilə məşhur idi. Siz də qadın kamança ifaçısı kimi tanınandan sonra deyirdilər ki, Şəfiqə xanım ifaçılıqda kişi-qadın söhbətini yığışdırdı...**

● Musiqidə kişi-qadın yoxdur. Habil Əliyev bizim böyük sənətkarımız olub. Bilmirdim ki, mənim haqqımda yaxşı sözlər deyə bilər. "Cavanlardan kimi bəyənirsən?"- deyə jurnalist ondan soruşanda mənim adımı çəkib: "Şəfiqə xalqın dilində çalır, onu xalq sevir" deyib. Düzü, çox sevindim ki, belə böyük bir sənətkar mənim haqqımda bu cür xoş sözlər deyib. Bilirsinizmi, zövq barədə mübahisə etməzlər, hərənin bir zövqü var. Habil müəllim ürəyini çalırdı, gözəl də alınırdı. Mən isə ürəyimi klassika ilə birləşdirirəm. Öz zövqümü, çalarlarımı klassik muğamlarla sintez edib ifa edirəm.

### HƏM ORKESTRDƏ, HƏM ANSAMBLDA

● **Maraqlıdır ki, siz uşaq ikən ailənizdə musiqi sevgisi olub. Sonra bu ənənə ailə qurduqdan sonra da davam edib: həyat yoldaşınız da, qızınız da tanınan ifaçılardır...**

● Bilmirəm, bu təsadüfdür, ya tale... Əhsən Dadaşov məni ansamblına dəvət edəndə 16 yaşım olmamışdı. Asəf Zeynallı adına musiqi məktəbində oxuyurdum. Orkestrdə çalışmaq fikrinə düşdüm və müəllimimdən icazə almağa gəldim. Səid Rüstəmov məni qəbul edəndə hündür görünmək üçün saçımı "babetta" yığdım, dikdaban tufli geyindim. Səid müəllim 60 nəfərin arasından məni imtahan etdi. Not çaldım, sonra "muğam çal" dedi. "Rast" muğamı ifa etdim. İndiki uşaqlar kamançanı tam kökləyə bilmir, mən isə kökləyirdim. Hafiz Mirzəliyev mənə yaxınlaşdı, kamançanı alıb kökləmək istədi. Uşaq idim axı. Dedim yox-yox, mən özüm. Bu cəhət Səid müəllimin diqqətindən yayınmayıb. Bir nüansı da deyim: Səid müəllim heç bir musiqiçini imtahan etməyib. Təsadüfə bax ki, yeganə olaraq məni və Əhsən Dadaşovu imtahan edərək orkestrə götürüb. O məni imtahan edəndə Əhsən müəllim də otaqda idi. Səid müəllim məni orkestrə qəbul etdi, amma xəbərim olmadı. Bir gün ansamblda nağara çalan İzzət xanım məni görüb: "Səid müəllim səni ansambla götürüb, niyə gəlmirsən?" - deyə maraqlandı. Sevincdən ağlaya-ağlaya anamın üstünə qaçdım. O vaxtdan orkestrə daxil oldum. O orkestrdə Baba Salahov, Əhsən Dadaşov, Sərvər İbrahimov, Dadaş Dadaşov kimi böyük sənətkarlar var idi. Əhsən Dadaşov da öz ansamblını yeni yaratmışdı. O, məktəbə gəlib "Şəfiqəni ansambla götürə bilərəmmi?" - deyə icazə aldı. Mən eyni vaxtda həm Səid Rüstəmovun rəhbərlik etdiyi orkestrə, həm də Əhsən Dadaşovun Xalq Çalğı Alətləri Ansamblına daxil oldum. Ansamblda yeganə qadın ifaçı idim. Ansambla kanon ifaçısı qadın da, başqa kamançaçalan da məndən sonra gəldi. Həyat yoldaşım Arif də ansamblda ifa edirdi. Nə onun mənə, nə də mənim ona başqa bir fikrimiz vardı. Hər ikimiz sənətimizlə məşğul idik. O, Konservatoriyaya daxil olan zaman "Konservatoriyanı, ya ansamblı seçərdin?" - deyə soruşanda "Əhsən Dadaşovu... O, elə konservatoriyadır", - deyə cavab verib. İndi o ansambldakıların hər biri professordur. Çünki onlar Əhsən müəllimin əlindən su içiblər. Əhsən müəllim qardaşım Yasəfi də imtahan edib ansambla götürdü.



Fotolar: Mahir Rüstəmov / Global Photostock



### KİŞİLƏR ARASINDA İLK SOLİST QADIN

● **O ansamblla çox məşhur müğənnilər oxuyurdu...**

● Bizim ansambla axın vardı. Zeynəb Xanlarovadan tutmuş digər müğənnilərə və xanəndələrə qədər... Yeganə ansambl idi ki, ilk dəfə xarici ölkəyə qastrola getdi. Mənim xaricə ilk səfərim Arif Babayevlə olub. Xarici ölkələrə daha çox solo ifalarla gedirdim. 1967-ci ildə Arif Babayev və Tofiq Məmmədovla Misirə getdik. Məni siyahıya salan maestro Niyazi olub. 16 yaşımdan efirdə olduğum üçün məni tanıyırdı. Həmin ildə ikimizin haqqında radioda oçerk səsləndi. Mənim haqqımda Əhsən Dadaşov, onun haqqında Bəhram Mansurov danışdı. 1968-ci ildə ansamblla - Şövkət Ələkbərova, Elmira Rəhimova, İslam Rzayev və Gülağa Məmmədovla birlikdə Əlcəzairə qastrol səfərinə getdik. O qədər gözəl səfər oldu ki, indi də unuda bilmirəm. Bizim ansamblda olan nüanslar heç bir ansamblda yox idi. Əhsən müəllim bizimlə saatlarla məşq edirdi. Onun zəhmətkeşliyi bizə də sirayət etmişdi. Çox xatirələrim, möcüzəli günlərim, böyük sənətkarlarla ünsiyyətim olub. Nə gizlədim, hamı xətrimi çox istəyirdi.

> *Əhsən müəllim qardaşımı işə götürəndə "Şəfiqə evə bəzən gec gedir, bir gedib, bir gəlin" dedi. Mən indiki cavanlara belə bir sənətkar və rəhbərlə işləməyi arzulayıram. O, əvəzolunmaz insan idi.*

● **Siz ansamblda ilk solist qadın idiniz?**

● Orkestrdə qadınlar vardı, amma ilk solist mən oldum. Deyirlər ki, qadınlar arasında ilk solist olmuşam, xeyr, mən kişilər arasında ilk solist qadın oldum. Məndən sonra qızlar kamança sinfinə yazıldı. Ona görə deyirlər ki, Şəfiqə qızlar sülaləsi yetişdirdi. Ramiz Quliyev həmişə mənə Qaqarin deyirdi. Asəf Zeynallı adına məktəbdə də müəllim kimi çalışdım. Sonralar da qızlar bu sənətə oğlanlardan çox axın edirdi. Vasif Adıgözəlov zarafatla "Siz Şəfiqənin çörəyini yeyirsiniz" deyirdi. Çoxlu tələbələrim olub. İndi onların çoxu təqaüdə çıxır. Aralarında Konservatoriyada, musiqi məktəblərində müəllim kimi çalışanlar da var. Tələbələrimə qarşı əlimdən gələni əsirgəməmişəm. İndi də barmağımdan süzülən musiqiləri tələbələrə aşılamaqda davam edirəm. Həmişə deyirəm ki, ölüb gedəcəyəm, niyə bunu uşaqlardan gizlədim? Estafeti cavanlara vermişəm. Qoy nə qədər ürəkləri istəyir ifa etsinlər. Şükür ki, indi də gözəl cavan ifaçılarımız var. Ancaq bizim ifaçılıq dövrümüz tamam fərqli idi. O vaxt xalq arasında musiqiyə maraq da ayrı cür idi. İndi əvvəlki ab-hava yoxdur. Xalqın zövqünü çaşdırıblar. Bir az yaşlı nəsildə klassikaya maraq qalıb. Yeni nəslin zövqü dəyişib. Bəlkə özümüz onların zövqünü dəyişdirmişik. Görünür, özümüzdə də təqsir var.

Tələbələrimə deyirəm ki, musiqiyə qarşı zövqlü, tələbkar, məsuliyyətli olun. Pula görə bayağı şeylərin dalınca qaçmayın. Biz də kasıb olmuşuq, asan dolanmamışıq. Mən heç vaxt toylara getməmişəm. Yanlış anlaşılmasın, toya getmək ayıb deyil, dolanışıq üçün gedirlər. Ancaq toya gedəndə də zövqlü ifalar olmalıdır.



## ƏHSƏN MÜƏLLİMDƏN SONRA...

● **Bizdə əvvəllər üç xalq çalğı alətləri ansamblı vardı. Əhsən Dadaşovun ansamblının sonrakı fəaliyyəti necə oldu?**

● 1976-cı ildə Əhsən müəllim rəhmətə getdi. Bir il sonra ansamblı Əhsən Dadaşov adına "Xatirə" ansamblı adlandırdılar. Mən Əhsən müəllimdən sonra ansambldan uzaqlaşdım. 28 yaşım vardı. Qardaşım da bir müddətdən sonra çıxdı. Əhsən müəllim qardaşımı işə götürəndə "Şəfiqə evə bəzən gec gedir, bir gedib, bir gəlin" dedi. Mən indiki cavanlara belə bir sənətkar və rəhbərlə işləməyi arzulayıram. O, əvəzolunmaz insan idi. Əhsən müəllimdən sonra mən "Trio"larda və solo ifalarla çıxış etdim. Bəhram Mənsurov məni üçlükdə ifa etməyə dəvət etdi. 1965-ci ildə ilk dəfə solo ifa etdim. 1967-ci ildə isə müəllimlik fəaliyyətinə başladım. Gələn il pedaqoji fəaliyyətimin 60, ifaçılıq fəaliyyətimin 62 ili tamam olacaq. Bu, 80 illiyimə ən gözəl töhfədir.

● **Siz 2003-cü ildə Türkiyənin Tekfen-Kara deniz Filarmoniya Orkestrinin də solisti olmusunuz...**

● Həmin orkestrdən dəvət almağım qəfil oldu. Türkiyədə bir rəhbər şəxsin qızı mənim ifamı görəndən sonra xoşuna gəlib və atasına təklif edib. Beləcə məni orkestrə dəvət etdilər. 2008-ci ilə qədər o orkestrdə çalışdım, qastrollara çıxdım. Daha sonra qızım Mehri orada ifa etməyə başladı. O da bir neçə şəhərdə konsertlərdə çıxış etdi. Ancaq orkestrin rəhbəri 102 yaşında dünyasını dəyişəndən sonra onların fəaliyyəti də dayandı.

### ÖMÜR VƏFA ETSƏ...

● **İndi niyə ifa etmirsiniz? İfanız üçün darıxanlar çoxdur...**

● İnanın, çoxları "sizin üçün darıxırıq, niyə ifa etmirsiniz. Siz ifa edəndə kövrəlirik" deyirlər. Görünür, ifam duyğulara təsir edir. Əlbəttə, bunları eşitmək mənə xoşdur. İndi ancaq yubiley tədbirlərində, verilişlərə dəvət alanda, yaşıma uyğun yerlərdə ifa edirəm. Sevinirəm ki, insanların yaddaşında gözəl ifaçılığımla qalmışam. Ancaq mən hələ xalqıma borcluyam. Əgər ömür vəfa etsə, bundan sonra da xalq üçün ifaçılıq sənətində töhfələrimi verəcəyəm

● **8 Mart Qadınlar bayramıdır. Qadınlara nə arzulayırsınız?**

● Qadınlara xoşbəxtlik arzulayıram. Həyat yoldaşlarına sadiq olsunlar. Dünyamızda əmin-amanlıq olsun. Övladları xoşbəxt olanda qadınlar da xoşbəxt olur.

# VI “YÜKSƏLİŞ” MÜSABİQƏSİNƏ QEYDİYYAT BAŞLADI




Bugünə qədər keçirilən “Yüksəliş” müsabiqəsinin 5 mövsümündə, ümumilikdə 69 min 963 nəfər iştirak edib. Müsabiqədə qalib gələn 116 nəfərdən 80-ə yaxını yüksək vəzifəyə təyin edilib.

VI “Yüksəliş” müsabiqəsinin qeydiyyat mərhələsinə start verilib. Bu barədə “Yüksəliş” müsabiqəsinin İşçi Qrupunun rəhbəri Fərhad Hacıyev müsabiqə ilə əlaqəli keçirilən brifinqdə məlumat verib.

### APRELİN 16-NA KİMİ DAVAM EDƏCƏK

F.Hacıyevin sözlərinə görə, ötən beş il müddətində müsabiqə iştirakçı sayının artımı ilə yanaşı, həm də keyfiyyət göstəriciləri üzrə əhəmiyyətli irəliləyiş əldə edib, müxtəlif sahələri təmsil edən minlərlə namizəd üçün obyektiv qiymətləndirmə və inkişaf mühiti yaradıb: “Builki müsabiqə üçün qeydiyyat aprelin 16-na kimi davam edəcək. Qeydiyyat “Yüksəliş” müsabiqəsinin rəsmi internet səhifəsi olan “yukselish.az” vasitəsilə həyata keçirilir”.

Qeyd olunub ki, qeydiyyat mərhələsi bitənədək yaşı 21-dən 51-dək olan, ali təhsilli, ən azı iki il idarəetmə təcrübəsinə malik Azərbaycan vətəndaşları müsabiqəyə qoşula bilərlər.

### ALTI MƏRHƏLƏDƏN İBARƏTDİR

“Yüksəliş” müsabiqəsi qeydiyyat, ümumi biliklər imtahanı, analitik təhlil, idarəetmə bacarıqları, yarımfinal və final olmaqla, altı mərhələdən ibarətdir.

Müsabiqədə iştirak etmək istəyən namizədlər “yukselish.az” rəsmi internet səhifəsində şəxsi kabinet yaratmaqla və qeydiyyat formasını doldurmaqla qeydiyyatdan keçə bilərlər”.

### BUGÜNƏDƏK 70 MİNƏ YAXIN ŞƏXS İŞTİRAK EDİB

Fərhad Hacıyev deyib ki, bugünə qədər keçirilən “Yüksəliş” müsabiqəsinin beş mövsümündə, ümumilikdə 69 min 963 nəfər iştirak edib. O bildirib ki, onlardan 116 nəfər qalib adını qazanıb: “Müsabiqə iştirakçılarının 30,45 faizi qadın, 69,55 faizi kişi olub”.

F.Hacıyev eyni zamanda beş müsabiqə müddətində iştirak edən şəxslərin təkrar qoşulma göstəricilərini də açıqlayıb: “Müsabiqədə iştirak edənlərin sayı 23 804 nəfər təşkil edib. İki müsabiqədə iştirak edənlərin sayı 7 718 nəfər, üç müsabiqədə iştirak edənlərin sayı isə 4 430 nəfər olub. Bundan başqa, 2 473 nəfər dörd müsabiqədə, 1 111 nəfər isə beş müsabiqədə iştirak edib. Statistik göstəricilər iştirakçıların bir hissəsinin müsabiqələrə təkrar qoşulduğunu göstərir”.

İşçi Qrupunun rəhbəri onu da diqqətə çatdırıb ki, bu vaxta qədər müsabiqədə qalib gələn 116 nəfərdən 80-ə yaxını yüksək vəzifəyə təyin edilib.

Xatırladaq ki, “Yüksəliş” müsabiqəsi Azərbaycan Prezidenti İlham Əliyevin 26 iyul 2019-cu il tarixində imzaladığı Sərəncamla təsis olunub. Müsabiqə qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı və özünüinkişaf üçün 20 min manat məbləğində pul mükafatı əldə edirlər.



# Enerji sahəsində əməkdaşlıq müzakirə edilib

Azərbaycan və Kot-d’İvuar enerji sahəsində əməkdaşlıq perspektivlərini, o cümlədən neft və qaz sektorunda birgə layihələrin həyata keçirilməsini müzakirə edib. Bu barədə “Report”a Azərbaycan Dövlət Neft Şirkətindən (SOCAR) bildirilib.

Məlumata əsasən, SOCAR prezidenti Rövşən Nəcəf Kot-d’İvuarın Abican şəhərində səfərdə olub. Azərbaycanın Xarici İşlər Nazirliyinin (XİN) və SOCAR-ın nümayəndələrindən ibarət heyətin səfəri çərçivəsində Kot-d’İvuarın XİN-in və enerji sektoru üzrə yüksək səviyyəli rəsmiləri ilə görüşlər keçirilib. Səfərdə XİN-i nazir müavini Yalçın Rəfiyev və onu müşayiət edən əməkdaşlar təmsil edib.

Kot-d’İvuarın Mədənlər, Neft və Energetika Nazirliyinin, həmçinin Nazirliyin Karbohidrogenlər üzrə baş direktorluğunun, eləcə də Kot-d’İvuarın milli neft şirkəti olan “PetroCI”nin rəhbər heyəti ilə görüşlərdə iki ölkə arasında enerji sahəsində əməkdaşlıq perspektivləri, o cümlədən neft və qaz sektorunda birgə layihələrin həyata keçirilməsi, investisiya imkanları və enerji təhlükəsizliyi məsələləri müzakirə olunub.

Görüşlərdə SOCAR-ın “Baleine” neft-qaz yatağının işlənməsi layihəsində 10% pay alması ilə bağlı, o cümlədən layihənin inkişaf mərhələləri, hasilat imkanları, logistika və kommersiya məsələləri barədə geniş fikir mübadiləsi aparılıb. Layihənin SOCAR-ın Afrikada fəaliyyət coğrafiyasını genişləndirmək və beynəlxalq enerji bazarlarında mövqeyini gücləndirmək baxımından strateji əhəmiyyəti vurğulanıb.

# “NAR” 8 MART MÜNASİBƏTİLƏ XANIM JURNALİSTLƏRİ TƏBRİK ETDİ

“Nar” 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə xanım jurnalistlər üçün xüsusi tədbir təşkil edib. Media nümayəndələri üçün keçirilən incəsənət master-klassında iştirakçılar Azərbaycanın yerli brendinin təcrübəli təlimçilərinin dəstəyi ilə öz zövqlərini və fərdi üslublarını əks etdirən yaxalıqlar hazırlayıblar. Yaradıcılıq prosesi iştirakçılar üçün həm estetik təcrübə, həm də ünsiyyət və paylaşım imkanı yaradıb.

Tədbirin əsas məqsədi jurnalistlər üçün ilhamverici və yaradıcı mühit formalaşdırmaq, onları gündəlik iş qayğılarından qısamüddətli uzaqlaşdırmaqla sənətin ilhamverici təsirini hiss etmələrinə şərait yaratmaq olub. “Nar” bu təşəbbüslə xanım media nümayəndələrinin əməyinə və cəmiyyətdəki roluna dəyər verdiyini bir daha nümayiş etdirib.




Qeyd edək ki, mobil operator hər il bayram ərəfəsində xanım jurnalistləri bir araya toplayır və bu özəl günü onlarla birlikdə qeyd etməkdən məmnunluq duyur.

Bununla da, medianın inkişafına töhfə verməyə və jurnalistlərin peşəkar fəaliyyətini dəstəkləməyə davam edir. “Nar”ın həyata keçirdiyi sosial və maarifləndirici layihələr haqqında ətraflı məlumatı nar.az saytından əldə etmək mümkündür.

Üç əsrin qəzeti Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 346
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# “UĞURA GEDƏN YOL UĞURSUZLUQDAN BAŞLAYIR”



Hacı Əliyev: “Hər bir insanın həyatında uğursuzluqlar da olur. Amma bu, son deyil. Bu, insanı heç vaxt ruhdan salmamalıdır. Uğurlu yol çətinliklərdən keçir”.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə “Kaspi” qəzeti tərəfindən reallaşdırılan “Məktəbdə...” layihəsinin növbəti tədbiri paytaxtdakı 47 nömrəli tam orta ümumtəhsil məktəbində keçirildi. 5 mart - Bədən Tərbiyəsi və İdman Günü ərəfəsində təşkil olunan görüşdə layihənin qonağı sərbəst güləş üzrə üçqat dünya, dördqat Avropa çempionu, Atletlər Komissiyasının üzvü, Azərbaycan Güləş Federasiyasının sərbəst güləş üzrə koordinatoru Hacı Əliyev oldu.

## “7-8 YAŞIMDAN GÜLƏŞƏ BAŞLAMIŞAM”

H.Əliyev indiyə qədər ali məktəblərdə, idman klublarında gənclərlə çox görüşsə də, orta məktəbdə şagirdlərlə ilk dəfə görüşdüyünü etiraf etdi: “Uğura gedən yol məktəbdən başlayır. Mən 7-8 yaşımdan güləşə başlamışam. Özüm də güləşçi ailəsində doğulmuşam. İlk məşqlərə başlayanda güləşin nə qədər çətin və ağır idman növü olduğunu hiss etdim, amma səbirli oldum. 25 il idman fəaliyyətimi davam etdirdim. Paris Olimpiadasından sonra karyeramı bitirdim”, - deyə öz idman yolundan danışdı: “Mən Azərbaycanda yeganə güləşçiyəm ki, üçqat dünya çempionu olmuşam. Olimpiadalarda gümüş və bürünc medallar qazanmışam. Bu nəticələri əldə etmək üçün gərgin çalışmışam. Hər bir nailiyyətin arxasında uzun illərin zəhməti dayanır və idmançı üçün ən böyük qürur həmin zəhmətin nəticəsi olaraq Azərbaycan bayrağını zirvələrə qaldırmaqdır”.

## “İDMAN İNSANI BÜTÜN ZƏRƏRLİ İŞLƏRDƏN UZAQLAŞDIRIR”

H.Əliyev uşaqlara idmanla ciddi məşğul olmağı tövsiyə etdi: “İndi bəzi uşaqlar pis vərdişlərə meyl edirlər. İdman insanı bütün zərərli işlərdən uzaqlaşdırır. Hazırda ölkəmizdə idmanla məşğul olmaq üçün hər cür şərait yaradılıb. İstərdim ki, böyüyən nəsil idmanla məşğul olub millətimiz üçün xeyirli işlər görsün. Qalib gələndə başqa millətlərin himnimizi ayaq üstə dinləmələrindən gözəl hiss yoxdur. Bu, şərəfdir. Ola bilər ki, siz peşəkar idmançı olmayasınız, amma idman sağlamlıqdır. Azərbaycanın gələcəyi sizin əlinizdədir. Ona görə sağlam böyüməlisiniz. Əgər aranızda güləşlə və ya başqa idman növü ilə məşğul olmaq istəyənlər olsa, sizə dəstək göstərməyə hazıram”.

H.Əliyev dedi ki, idmanla məşğul olmağa başlamaq üçün ən məsləhətli yaş dövrü 6-7 yaşlardır: “Bu yaşda artıq bədən idmana öyrəşir. İnsan həyatı dərk edincə görür ki, idman həyatında mütləq olmalıdır”.

## “TEZ-TEZ MƏKTƏB DƏYİŞMƏYİM OXUMAĞIMA TƏSİR EDİRDİ”

Dünya çempionu məktəb illərini də xatırladı: “Məktəbdə oxuduğum illərdə idmanı bütün fənlərdən üstün tuturdum. Orta məktəbin bəzi siniflərini Bakıda, bəzilərini Naxçıvanda bitirmişəm. Tez-tez məktəb dəyişməyim oxumağıma təsir edirdi. Amma idmana olan sevgim dəyişmədi. Atam güləşçi olduğundan bu istək mənə də hopdu. Başqa idman növü ilə məşğul olmağa vaxt yox idi. Bir də gördüm ki, medallar qazanıram. Mən həm də Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişəm. Məktəb illərindəki müəllimlərimlə və dostlarımla indi də əlaqə saxlayır, görüşürəm. Ən gözəl dostluq məktəb illərində qazanılır”.

## “ÇEMPİON OLMAQ O DEMƏK DEYİL Kİ, İSTƏDİYİNİ EDƏSƏN”

H.Əliyev çempion olmaq hissinin fərəhindən də söhbət açdı: “Bunun qədər gözəl hiss yoxdur. Səni ölkənin Prezidenti və insanları tanıyır. Ancaq çempion olmaq o demək deyil ki, istədiyini edəsən. Çempion olanda gərək öz davranışlarına daha çox fikir verəsən, nümunə olasan. Bu, sənin üzərinə daha böyük məsuliyyət qoyur. Bütün idmançılar üçün yarışda bayraq daşımaq şərəfdir. Bu qalibiyyət təhsil sahəsində də ola bilər. Həyatda asan heç nə yoxdur. Əgər çempion olmaq, qalib gəlmək istəyirsənsə, bunun üçün çalışqanlığın daha güclü olmalıdır, özünə inanmalısan. Kim olursan ol, o işi mükəmməl görmək lazımdır. Öz üzərində daim işləməlisən. Hansı sənəti seçirsənsə, ən yaxşısı olmaq uğrunda çalışmalısan”.

## “MÜKAFATLAR QAZANANA QƏDƏR DƏFƏLƏRLƏ MƏĞLUB OLMUŞAM”

Dünya çempionu dedi ki, uğura gedən yol uğursuzluqdan başlayır: “Hər bir insanın həyatında uğursuzluqlar da olur. Amma bu, son deyil. Bu, insanı heç vaxt ruhdan salmamalıdır. Uğurlu yol çətinliklərdən keçir. Mən mükafatlar qazanana qədər dəfələrlə məğlub olmuşam. Amma bu, məni heç vaxt həvəsdən salmayıb. Əksinə, daha mübariz olmuşam. Bizim torpaqlarımız 30 il ermәni işğalı altında oldu. Amma biz torpaqlarımızı azad edə bildik. Buna birliyimiz, şücaət və rəşadətimiz sayəsində nail olduq. Qələbə üçün sona qədər mübarizə aparmaq lazımdır”. Dünya çempionu idmanın çətin yolunda hər adamın tab gətirmədiyini dedi: “Mənimlə başlayan o qədər uşaq oldu ki, onlar sona qədər getmədilər. Məğlub olanda həvəsdən düşdülər. “Çətindir, şərait yoxdur” deyib idmanı tərk etdilər. Mən isə dözdüm...” İdmançı bildirdi ki, nə qədər çox çempionluq titulu qazansa da, onun üçün həyatda əsl çempion valideynləridir: “Onlar həmişə bizə dəstək olurlar. Bütün yaşlarımızda bizim yanımızdadırlar. Valideynlərimiz bizim üçün ən böyük çempionlardır. Siz də valideynlərinizin qədrini bilin”.

## “SOSİAL ŞƏBƏKƏLƏR İNSANIN VAXTINI ALIR”

İdmançı məktəblilərə sosial platformalardan istifadə etməməyi məsləhət gördü: “Sosial şəbəkələr insanın vaxtını alır. O vaxtı daha mühüm işlərə - idmana, dərslərinizi daha yaxşı oxumağa sərf edə bilərsiniz. Mən böyük oğlan idim, amma mobil telefonum yox idi. 11-ci sinfə yaxın mobil telefonum oldu, onunla da yalnız şəkil çəkmək olurdu. Əgər telefonla məşğul olsaydım, idmandakı uğurlarımı qazana bilməzdim. Sonralar da mən yarışlara qatılanda həmişə telefonu kənara qoyurdum. Bu gün siz dərslərinizi yaxşı oxumalısınız ki, uğurlu insan olasınız. Sabah sizə “dərsini yaxşı oxu” deyən olmayacaq. Çünki insan həmişə yeniyetmə və ya gənc, eyni zamanda enerjili olmur. Çalışın, sizə lazım olan və fayda gətirən şeylərdən istifadə edin”.





**Fotolar:** Mahir Rüstəmov-Global Photostock

# KASKO "LÜKS"Ə ÇEVRİLİR?

## "ENDİRİM KAMPANİYALARI DAYANDIRILIB"

**Bu ilin əvvəlindən avtomobil idxalında müşahidə edilən dəyişikliklər və tarif siyasəti KASKO sığortası bazarına təsir edib. Yanvarda yığımlar azalıb, zərər əmsalı isə yüksəlib.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Sığorta bazarında ilin ilk ayı KASKO seqmentində ziddiyyətli dinamika ilə yadda qalıb. Azərbaycanın sığorta şirkətləri cari ilin yanvarında avtonəqliyyat vasitələrinin könüllü sığortası üzrə 5 milyon 452 min manat sığorta haqqı toplayıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,9 faiz və ya 164 min manat azdır. 2025-ci ilin yanvarında bu göstərici 5 milyon 616 min manat təşkil etmişdi. Eyni zamanda bu ilin yanvarında ödənişlər artıb - KASKO üzrə 2 milyon 429 min manat ödəniş həyata keçirilib ki, bu da illik müqayisədə 1,6 faiz və ya 38 min manat çoxdur. Nəticədə zərər əmsalı yüksələrək hər 100 manat yığıma qarşı 44,6 manat ödəniş səviyyəsinə çatıb. Yığımların azalması və ödənişlərin artması fonunda bazarın hansı istiqamətdə hərəkət etdiyi maraq doğurur. Bəs, görəsən, 2,9 faizlik azalma mövsümi dalğalanmadır, yoxsa daha dərin proseslərin ilkin siqnalıdır?




### YIĞIMA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

Sığorta mütəxəssisi Şahin İsmayılovun sözlərinə görə, yanvar ayı üzrə yığımların azalmasına əsas səbəb avtomobil idxalında gözlənilən dəyişikliklərdir: "Azərbaycan sığorta sektorunda avtomobillərin KASKO sığortası üzrə yığımlarda xoşagəlməz azalma müşahidə olunur. 2025-ci ilin yanvar ayı ilə müqayisədə bu ilin yanvar ayı üzrə yığımlarda 2,9 faiz azalma var. Buna bir neçə amil öz təsirini göstərir. İlkin olaraq, Çindən idxal edilən avtomobillərə tətbiq olunan güzəşt müddətinin bitməsi və bu avtomobillərin qiymətində hiss edilən artım qeyd olunmalıdır. Bu, həm avtomobil idxalının müəyyən qədər azalmasına, həm də KASKO sığorta qiymətinə öz təsirini göstərib".

Ş.İsmayılov bildirdi ki, başqa bir məsələ, keçən il sığorta şirkətlərinin KASKO sığortasına tətbiq etdikləri endirim kampaniyalarının 2026-cı ildən dayandırılmasıdır: "Bu qiymət siyasəti keçən ilki müştərilərin KASKO sığortasını yeniləməkdən imtina etməsinə səbəb olub. Vətəndaşlar arasında riskə yanaşma amili də gözlənilən səviyyədə deyil. Bir çox sürücülər KASKO sığortanı "lüks" məhsul kimi görür və yalnız avtomobilin icbari sığortası ilə kifayətlənirlər. Əsasən çox yüksək qiymətə alınan avtomobil sahibləri KASKO sığortasına müraciət edirlər. Bir çox vətəndaşlar könüllü sığorta məhsullarına əlavə xərc kimi baxırlar və əsasən öz gündəlik tələbatlarını ödəməyə fokuslanırlar".

### "YIĞIM AZALIR, HADİSƏLƏR ARTIR"

Mütəxəssisin fikrincə, KASKO yığımlarının azalmasına baxmayaraq, hadisə sayı artır: "Belə olduqda sığorta şirkətləri daha böyük məbləğdə ödənişlər etmək məcburiyyəti qarşısında qalırlar. Xərcləri artan sığorta şirkətləri tarifləri artırmaqla bu vəziyyətdən çıxmağa çalışır və nəticə müştəri itirilməsinə gətirib çıxarır. Taksi və kuryer xidmətləri də qəza hadisələrinin sayının artmasına öz təsirini göstərir".

Ş.İsmayılovun sözlərinə görə, belə davam edərsə, 2026-cı il üçün KASKO sığorta satışında daha böyük azalmalar müşahidə edilə bilər: "Bunun baş verməməsi üçün sığorta şirkətləri təbliğat işini artırmalı və qiymət siyasətinə yenidən baxmalıdırlar. Bazarın daralması həm iqtisadiyyatımız üçün, həm də sığorta şirkətləri üçün yaxşı heç nə vəd etmir".

## ÖTƏNİLKİ STATİSTİKADA QEYDƏ ALINAN ARTIMIN SƏBƏBİ

Sığorta Agentləri Assosiasiyasının təsisçisi Vüsal Bədəlov da düşünür ki, azalma əsasən gömrükdə baş verən dəyişikliklərlə bağlıdır: "Yanvar ayındakı azalma gömrük xərclərinin artırılması və ölkəyə gətirilən avtomobillərin sayının azalması ilə əlaqələndirilir. Ölkəmizə gətirilən avtomobillərin sayında cari ildə azalma müşahidə olunur. Ötən il Azərbaycana idxal edilən Çin avtomobillərinin sayının artması, eyni zamanda bu avtomobillərin ehtiyat hissələrinin və təmir xərclərinin kifayət qədər baha olması vətəndaşları KASKO sığortası etdirməyə daha çox təşviq etmişdi. Keçən il qeydə alınan artım əsasən bununla bağlı idi".



Şahin İsmayılov

Vüsal Bədəlov

V.Bədəlovun fikrincə, bir çox şirkətlər müştəri itirməmək üçün tarifləri dəyişiblər, bu isə yığımlara öz təsirini göstərib: "Bununla yanaşı, sığorta bazarında tarif siyasətinin daha fərdi və çevik tətbiq olunması da rol oynayır. Şirkətlər portfellərində daha çox yer tutmaq və KASKO üzrə müraciət edən müştəriləri itirməmək üçün tariflərə daha individual yanaşırlar. Əvvəlki illərlə müqayisədə tarif cədvəllərində müəyyən dəyişikliklər də müşahidə olunur ki, bu da fərqin yaranmasına təsir edir".

### "MARTDAN SONRA BAZAR ƏVVƏLKİ VƏZİYYƏTİNƏ QAYIDACAQ"

Müsahibimiz gələcək aylarda bu tendensiyanın davam edəcəyini düşünmür: "İnsanlar mart ayından sonra yeni qiymətlərə uyğunlaşacaq, bununla da avtomobil satışı və alışı ilə bağlı aktivlik arta bilər. Beləliklə, azalma davamlı xarakter daşımayacaq. Martdan sonra bazarın əvvəlki vəziyyətinə qayıtması mümkündür. Lakin avtomobil bazarında durğunluq yaranarsa, bu, birbaşa KASKO sığortasına da təsir göstərə bilər".

V.Bədəlovun fikrincə, mövcud dinamika davam edərsə, sığorta yığımlarında azalma davamlı olacaq: "Bunun qarşısını almaq üçün sığorta şirkətləri maarifləndirmə işlərini gücləndirməli, KASKO ilə bağlı xidmət səviyyəsini artırmalı və müştəri inamını möhkəmləndirməlidirlər. Bu halda sığorta yığımlarında artım mümkündür".

# O İLLƏRDƏN BU İLLƏRƏ: 8 MART



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Sabah ölkəmizdə 8 Mart Beynəlxalq Qadınlar Günü qeyd ediləcək. Bu tarix qadınların iqtisadi, sosial və siyasi bərabərlik uğrunda mübarizəsini əks etdirən Beynəlxalq Həmrəylik Günüdür. Hər il mart ayının əvvəlindən etibarən, şəhərdə bayram ab-havası hiss olunur, küçələr gül qoxuyur, vitrinlərdəki hədiyyələr göz oxşayır, sosial şəbəkələr "əziz və zərif xanımlar" müraciətləri ilə dolur.

Bu günün qeyd olunması 1910-cu ildə, alman sosialist fəal Klara Zetkinin təşəbbüsü ilə Kopenhagen şəhərində keçirilən II Beynəlxalq Sosialist Qadınlar Konfransında qəbul edilib. Qadınlar Günü ilk dəfə 1911-ci ildə Almaniya, Avstriya, İsveçrə və Danimarkada qeyd olunub. Daha sonra 1913-cü ildə Rusiyada, 1917-ci ildə isə Azərbaycanda qeyd olunmağa başlanıb. 1914-cü ilə qədər Beynəlxalq Qadınlar Günü müxtəlif tarixlərdə keçirilirdi. Sonradan Avstriya, Macarıstan, Rusiya, ABŞ və digər ölkələrdə qadınların məhz 8 mart tarixini həmrəylik günü kimi qeyd etməsi bu ənənənin formalaşmasına səbəb olub. Daha sonrakı dövrlərdə bu tarix bir çox ölkələrdə qadınların sülh və hüquq bərabərliyi uğrunda həmrəylik günü kimi qeyd olunmağa başladı. 1965-ci ildən keçmiş SSRİ-də 8 mart istirahət günü elan edilib.

## GÜL VƏ KONFET QUTULARI...

8 Martın qeyd edilmə forması zamanla sosial və iqtisadi dəyişikliklərə paralel olaraq dəyişib. Sovet dövründə daha çox kollektiv və simvolik xarakter daşıyırdı. Bu dövrdə iş yerlərində rəhbərlik tərəfindən kütləvi təbriklər edilir, əsasən gül və konfet qutuları kimi simvolik hədiyyələr təqdim edilirdi.

2000-ci illərdə hədiyyə seçimlərində dəyişiklik müşahidə olunmağa başladı. Daha çox zinət əşyalarına üstünlük verildi, restoran rezervasiyalarında artım qeydə alındı, həmçinin brend və reklam kampaniyalarının sayı əhəmiyyətli dərəcədə çoxaldı. Bu dövr 8 Martın həm sosial, həm də kommersiya baxımından aktivləşdiyi mərhələ kimi qiymətləndirilir. Musiqili açıqcalar dövrü də məhz bu illərə təsadüf edir.

2026-cı il reallığında isə qeyd etmə modelləri daha çox rəqəmsal iqtisadiyyatla əlaqələnib. Elektron ticarət platformaları xüsusi kampaniyalar həyata keçirir, sosial mediada "ideal hədiyyə" gözləntisi formalaşır. Sosial şəbəkələrdə, xüsusilə qadın qruplarındakı "Qızlar, hədiyyələrinizi paylaşın"la başlayan cümlələr rəqabəti daha da artırır. Eyni zamanda, inflyasiya və ümumi qiymət artımı hədiyyə seçimlərini və istehlak davranışını birbaşa təsir altında saxlayır. Restoranlarda növbələr və həmin günün tıxaclı yollarında isə əsl bayram ab-havası hiss olunur.

Hazırda 8 Martda ən çox satılan məhsullar gül, xüsusilə qızılgül, parfümeriya və kosmetika məhsulları, qızıl-zinət əşyaları və smart cihazlardır. Qiymətlərə gəldikdə isə, tələbat yüksək olduğu üçün həmin gün qiymətlər cib yandırır.

> Hazırda 8 Martda ən çox satılan məhsullar gül, xüsusilə qızılgül, parfümeriya və kosmetika məhsulları, qızıl-zinət əşyaları və smart cihazlardır. Tələbat yüksək olduğu üçün həmin gün qiymətlər cib yandırır.

## 8 Martın cib yandıran qiymətləri...

Əvvəlcə güllərin qiymətinə baxaq. Bakının məşhur gül salonlarında buketlər 100-150 manatdan başlayır. VIP məhsulların qiymətləri isə 700 manatdan başlayaraq 1500 manata qədər yüksələ bilir. Simvolik 101 qızılgül buketinin qiyməti 500 manatdan başlayaraq 800-900 manata qədər dəyişir.

Digər mağazalarda 50, 60, 100, 150, 200 manata da gül buketi hazırlatmaq mümkündür. Tək güllər 6 manatdan başlayır. Qarışıq buketlər 80 manatdan, bir gül növündən ibarət olan buketləri isə 150 manatdan başlayaraq 700 manata qədər davam edir. Daha ucuz güllərdən 50-60 manata da buket yığdırmaq mümkündür.

Parfümeriya qiymətlərinə gəldikdə isə, 8 Mart ərəfəsində bu kateqoriyada da mövsümi qiymət dəyişiklikləri müşahidə olunur. Tələbatın artması ilə premium və brend ətirlər daha çox diqqət çəkir. Adətən, rəsmi distribütor şəbəkələrində qiymətlər sabit qalsa da, pərakəndə satış məntəqələrində və onlayn bazarlarda kampaniya və endirim siyasətləri fərqli olur. Azərbaycanda parfümeriya məhsullarının qiymətləri brend, həcm və məhsulun premium səviyyəsindən asılı olaraq dəyişir. Büdcə seqmentinə aid ətirlər adətən 20-60 manat aralığında, orta seqment ətirlər 50-150 manat aralığında satılır. Premium və lüks seqmentdə isə qiymətlər 200-600 manat və daha yuxarı ola bilir. Qramla satılan ətir növləri də günün ən çox satılan ətir növlərindəndir.

## Qızıl-zinət əşyaları, smart cihazlar

Qızıl-zinət əşyaları qiymət baxımından daha bahalıdır. Sadə qızıl sırğa, bilərzik və üzüklər üçün qiymətlər 400-800 manat aralığında başlayır. Brilyant və digər qiymətli daşlarla bəzədilmiş zinət əşyalarının qiymətləri isə 1500-2000 manatdan yuxarıdır. Azərbaycanda smart cihazlar 8 Mart hədiyyəsi kimi geniş seçim imkanları təqdim edir. Büdcə seqmentinə aid ağıllı saatlar, qulaqlıqlar və fitnes qolbaqları 100-300 manat aralığında satılır. Orta seqment smartfon və ağıllı saat modelləri 300-700 manat aralığında dəyişir. Premium smart cihazların qiyməti 700 manatdan yuxarı formalaşır. Təbii ki, son model telefon almaq istəsəniz, minimum 2500-3000 manat xərcləməli olacaqsınız.

Məlumat üçün bildirək ki, bu gün hədiyyə bazarında aktivlik müşahidə edilsə də, XX əsrin əvvəllərində "çörək və qızılgüllər" şüarı formalaşıb. Bu şüar qadın hərəkatının sosial mahiyyətini ifadə edirdi. "Çörək" minimum yaşayış standartlarını, "qızılgüllər" isə ləyaqətli və keyfiyyətli həyat hüququnu simvolizə edirdi.

# BORCLANMA DÖVRÜ BİTİR?

Ödəniş kartlarının sayı artsa da, kredit kartları üzrə azalma qeydə alınıb. Ekspertlər bunu kredit xətti qaydalarının sərtləşdirilməsi, gəlirə uyğun limit tətbiqi və risklərin daha ciddi qiymətləndirilməsi ilə izah edirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Kart bazarı böyüməyə davam etsə də, rəqəmlər daxilində diqqət çəkən ziddiyyət formalaşıb. Yanvarın sonunda dövriyyədə olan ödəniş kartlarının sayı aylıq müqayisədə 176 min artaraq 22 milyon 156 minə çatıb. İllik artım 11 faizdir. Lakin ümumi artımın arxasında fərqli mənzərə var. Belə ki, debet kartları 13.3 faiz artdığı halda, kredit kartlarının sayı 7.6 faiz azalıb. Yəni bazar böyüyür, amma borclanma alətləri geri çəkilir. Bəs görəsən kredit kartlarının azalmasının səbəbi nədir?

### "MƏQSƏD İZAFİ BORCLANMANIN QARŞISINI ALMAQDIR"

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramovun sözlərinə görə, kredit kartlarının azalması əsasən onların verilmə şərtlərinin dəyişdirilməsi ilə bağlıdır: "Mərkəzi Bank tərəfindən kredit xətti üzrə yeni qaydalar hazırlanıb və bu qaydalara əsasən, vətəndaşın rəsmi gəliri ilə ona açılan kredit xətti arasında birbaşa əlaqə müəyyənləşdirilib. Məqsəd vətəndaşların izafi borclanmasının qarşısını almaq, kreditləşməni daha məsuliyyətli etməkdir. Bu addım borclanmanın nəzarətdə saxlanmasına və risklərin azaldılmasına xidmət edir. Bu proses həm də istehlak kreditləşməsinin zəifləməsi demək deyil. İstehlak kreditlərinə tələb hələ də qalır və kredit portfelində artım müşahidə olunur".



Vüqar Bayramov

Foto: Firudin Səlimov-Global Photostock

### "KREDİT KARTLARININ SAYINDA YENİDƏN ARTIM GÖZLƏNİLİR"

V.Bayramovun fikrincə, yenilik vətəndaşları izafi borclanmadan uzaqlaşdırır: "Əvvəlki dövrlərdə bəzi kredit kartları üzrə rəsmi gəlirlə açılan kredit xətti arasında tam mütənasiblik müşahidə olunmurdu. Nəticədə bəzi banklar və poçt qurumları tərəfindən yüksək məbləğli kredit xətləri təklif edilirdi və nəzarət mexanizmləri indiki qədər sərt deyildi. Bu isə bir sıra hallarda vətəndaşların artıq borclanmasına səbəb olurdu. Xüsusilə gəlirlə müqayisədə böyük limitlərin açılması sonradan ödəniş çətinlikləri yaradır, gecikmələr və əlavə maliyyə öhdəlikləri formalaşdırırdı. Yeni qaydaların tətbiqi kredit kartlarının sayına birbaşa təsir göstərib, çünki kredit kartı faktiki olaraq kredit xəttinin açılması deməkdir və hər bir yeni kart potensial borclanma imkanı yaradır. Kredit kartlarının azalması tələbin zəifləməsi deyil, bazarın optimallaşdırılması kimi qiymətləndirilir. İzafi borclanma uzunmüddətli perspektivdə maliyyə sabitliyi üçün risk faktoruna çevrilə bilərdi".

Millət vəkili bildirdi ki, bu dinamika kredit kartlarının növbəti dövrlərdə də azalacağı anlamına gəlmir: "Rəsmi gəliri olan və kredit kartı əldə etmək istəyən kifayət qədər vətəndaş mövcuddur və müraciət edən şəxslərə onların gəlirlərinə uyğun limit müəyyən edilir. Yəni bazarda tələbin tamamilə itməsi deyil, daha selektiv və ölçülmüş kreditləşmə modeli formalaşır. Yeni qaydalar tətbiq olunduqdan sonra bazar müəyyən müddət reaksiya verir, daha sonra isə yeni şərtlərə uyğunlaşaraq tarazlıq formalaşdırır. Adaptasiya mərhələsindən sonra kredit kartlarının sayında yenidən artımın mümkün olduğu istisna edilmir və bazarın daha dayanıqlı struktur üzərində inkişaf edəcəyi gözlənilir".

### "Geniş həcmdə kredit xətləri asanlıqla təqdim edilmir"

Bank eksperti Emin Kərimov qeyd etdi ki, kredit kartları müştərinin gəlirləri və xərcləri nəzərə alınmaqla təqdim olunur və bu proses bir neçə mərhələdən ibarətdir: "Yəni kredit kartı sadəcə ödəniş vasitəsi deyil, eyni zamanda kredit xəttidir və bu xəttin açılması üçün maliyyə göstəriciləri əsas meyar sayılır. Məsələn, şəxs 3 min manatlıq kredit limiti istəyirsə, lakin bankın hesablamalarına əsasən ona maksimum 1500 manat uyğun görülürsə, həmin şəxs digər banklara müraciət etdikdə də ümumi borclanma səviyyəsinə görə imtina ilə qarşılaşa bilər. Bu isə nəticə etibarilə kredit kartlarının ümumi sayına təsir göstərir. Çünki hər müraciət müsbət qərarla nəticələnmir və risk göstəriciləri yüksək olan şəxslərə limit açılmır. Bununla yanaşı, tənzimləyici qurumların qaydaları sərtləşdirməsi və borcalanların qiymətləndirilməsi meyarlarının daha dəqiqləşdirilməsi bankların kredit siyasətinə təsir edir. Artıq əvvəlki dövrlərdə olduğu kimi geniş həcmdə 3-5 min manatlıq kredit xətlərinin asanlıqla təqdim edilməsi mümkün deyil. Banklar riskləri azaltmaq üçün daha aşağı məbləğlərdə limitlər tətbiq edir və daha selektiv yanaşma sərgiləyir. Bu isə statistik olaraq kredit kartlarının sayında azalma ilə nəticələnə bilir".

E.Kərimovun sözlərinə görə, debet kartların artması və kredit kartlarının azalması bütövlükdə bazarın gedişatı ilə tənzimlənir: "Bununla belə, kredit kartları vətəndaşlar üçün əlavə maliyyə vəsaiti kimi əhəmiyyətini qoruyur və istehlakın maliyyələşdirilməsində rol oynayır".

### "İSTEHLAK KREDİTLƏRİNƏ DAHA ÇOX ÜSTÜNLÜK VERİRLƏR"

Ekspertin fikrincə, istehlak kreditlərinin cəlbediciliyi də rəqəmlərə təsir edir: "Kredit kartlarına tələbin azalması müəyyən hallarda əhalinin borclanmadan yayınması ilə də əlaqələndirilir. Bəzi dövrlərdə vətəndaşlar istehlak kreditlərinə daha çox üstünlük verə bilirlər. Məsələn, müəyyən banklarda istehlak kreditləri 10 faizdən başlayaraq təklif olunduğu halda, kredit kartları üzrə faiz dərəcələri 22-30 faiz intervalında dəyişə bilir. Bu fərq seçimə təsir edir və kredit kartlarından istifadənin müvəqqəti azalmasına səbəb olur".



Emin Kərimov




Foto: Alper Tüydeş

# UNUDULMAZ SƏDAQƏT HEKAYƏSİ

**Leylək Yaren hər il Keniyadan yola çıxır və təxminən 5-6 min kilometr məsafə qət edərək, fevral və mart aylarında yenidən Uluabat gölündəki yuvasına qayıdır. Artıq 15 ildir ki, o, yayı burada dostu Adem əmi ilə birlikdə keçirir.**



MURAD ARBAY

Dünyanın bir çox yerində siren səsləri yüksələrkən, göy üzündə tamam başqa bir hekayə yazılır. Sərhədləri xəritələr çəkir, amma ürəklər yox... Elə buna görə də bir leyləyin qanad çırpıntısı ilə bir insanın gözləyişi arasında qurulan bağ, qarışıqlığın ortasında bizə hələ də yaxşılığın mümkün olduğunu xatırladır.

### ALTI MİN KİLOMETRLİK VƏFA

Yaren Leylək qış aylarını Afrikanın isti torpaqlarında - Keniyada keçirir. Soyuq şimal küləkləri başlayanda cənuba enir; bahar yaxınlaşanda isə içindəki kompas onu yenidən şimala çağırır. Təxminən 6 min kilometrlik o uzun yol... Nil vadisini, səhraları, dənizləri, dağları aşaraq gəlir. Hər qanad çırpıntısı sanki bir dosta verilmiş söz kimidir. Onun yolçuluğu sadəcə mövsümi köç deyil, bir vəfanın hekayəsidir.

### QAYIQDA GÖZLƏYƏN DOSTLUQ

Türkiyədə - Bursanın Uluabat gölü sahilində isə bir qayıq hər il eyni səbirlə o anı gözləyir. O qayığın içində bir insan... Adem Yılmaz, ya da hamının bildiyi adı ilə Adem əmi.

On beş ildir eyni mənzərə təkrarlanır: Göy üzündə bir siluet görünür, qanadlar yavaş-yavaş enir və Yaren Adem əminin qayığına qonur. Bu il isə hər zamankından daha tez gəldi. Sanki həsrət daha ağır basırmış kimi. Sanki dünya nə qədər qarışsa da, "mən buradayam" demək istəyirmiş kimi.

### BİR TƏSADÜFDƏN DOĞAN BAĞ

Yarenin hekayəsi əslində bir təsadüflə başladı. İllər əvvəl bir gün, bir qayığın kənarına qonmuş bir leylək... Bir neçə balığın paylaşılması... Sonra isə zaman keçdikcə bu, sadəcə bir vərdişdən daha artıq - bir dostluğa çevrildi. Fotolarda əks olunan o an artıq sadəcə bir təbiət səhnəsi deyil, sədaqətin sübutu oldu.

İnsan bəzən öz növündə tapa bilmədiyi bağlılığı bir quşun gözlərində tapa bilir. Çünki sevgi eyni dili danışmaqla bağlı deyil, eyni duyğunu daşıya bilməklə bağlıdır.

### ON BEŞİNCİ QOVUŞMA

Yarenin 6 min kilometrlik yol qət etməsi bizə bunu deyir: Həqiqi bağlar məsafə ilə zəifləməz.

Adem əminin hər il eyni yerdə gözləməsi isə bunu xatırladır: Sədaqət gözləməyi bacarmaqdır. On beşinci qovuşma... Dünyanın bütün qarışıqlığına baxmayaraq dəyişməyən bir görüş.

Bəlkə də buna görə Yaren hər bahar sadəcə bir leylək kimi qayıtmır. Ümid kimi qayıdır. Və biz o qayığın üzərindəki o anı görəndə, insanlığın hələ də tamamilə yox olmadığını hiss edirik.




## ALPER TÜYDEŞİN KADRINDA ƏFSANƏVİ DOSTLUQ



Yaren və Adem əminin dostluğunu Türkiyəyə və bütün dünyaya vəhşi təbiət fotoqrafı Alper Tüydeş çatdırdı. O, uzun illər boyunca bu iki varlığın qayıq üzərindəki görüşlərinin ən xüsusi anlarını səbirlə obyektivinə köçürdü. Onun obyektivi sayəsində Yarenin qanad çırpıntısı və Adem əminin təbəssümü sadəcə bir an deyil, yaddaşlarda əbədi qalan bir sədaqət hekayəsinə çevrildi.




**Adem əmi hər səhər Yarenə təzə tutulmuş balıqları yedizdirir.**

## Yaren və Ademin unudulmaz dostluğu

Yaren adətən öz yoldaşı Nazlıdan sonra gəlirdi. Əvvəl Nazlı görünür, yuvanı yoxlayır, sonra isə Yaren uçub gəlirdi. Bu il isə qayda dəyişdi. Yaren həmişəkindən daha tez qayıtdı. Onun bahar tam gəlməmişdən əvvəl qayıtması sanki həsrətin tələsikliyə çevrilməsi kimidir. İndi hamı Nazlını gözləyir, onun da tezliklə gələcəyi gözlənilir.

Hər il yuvada bir neçə bala böyüyür. Nazlı və Yaren onları səbirlə bəsləyir, qanadlandırır, yay sonunda isə hamısı birlikdə göyə qalxaraq Şərqi Afrikaya doğru uzun bir səfərə çıxırlar. Fəsillər dəyişir, amma onların ailə hekayəsi hər bahar yenidən başlayır.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
7 MART ŞƏNBƏ 2026
www.kaspi.az

Çempionlar Liqasında bu mövsüm əldə edilən nəticənin təkrarlanması çox çətindir. Bu isə neytral azarkeşlərin yenidən məhz “Qarabağ”ın bu turnirə getməsini arzulamaları ilə nəticələnib. Lakin qaydalara görə ÇL-ə çempion gedir. Hazırkı məqamda isə buna daha yaxın olan “Sabah”dır.

# SON İLLƏRİN ƏN RƏQABƏTLİ MÖVSÜMÜ




Çəkinmədən söyləmək olar ki, futbol üzrə Azərbaycan Premyer Liqasında son illərin ən rəqabətli mövsümünü izləyirik. Bir qayda olaraq “Qarabağ”ın hegemonluğu ilə davam edən çempionatda bu dəfə daha bir fiqur ön plandadır. Söhbət “Sabah”dan gedir. Təsadüfi deyil ki, “futuristlər” yarışın sonuna 11 tur qalmış zirvədə məskunlaşıblar. 22 qarşılaşmada 53 xal toplayan Valdas Dambrauskasın komandası vahid liderdir. Ehtiyatında bir oyunu da olan “Qarabağ” 46 xalla ikinci pillədədir.

## ÇEMPİONLAR LİQASI SƏVİYYƏSİNDƏ OYUN

Ötən bazar Premyer Liqada mövsümün ən maraqlı oyunu baş tutdu. Çempionluğa əsas iddialılar Tofiq Bəhramov adına Respublika stadionunda münasibətlərinə aydınlıq gətirdilər. “Nyukasl”la ağır oyunlardan sonra “Sabah”ın qarşısına çıxan “Qarabağ” üçün çempionluq yarışında geri qalmamaq baxımından ev oyunu böyük əhəmiyyət kəsb edirdi. Əks cəbhədə isə əsas rəqiblə qarşılaşmada sərfəli nəticə əldə edib zirvədəki komfort mövqeyini davam etdirmək niyyətində olan “Sabah” var idi.

Qarşılaşma əsl triller oldu. Yəqin ki, heç kəs oyunun ssenarisinin belə olacağını gözləmirdi. Bir saatın tamamında artıq “Sabah”ın 3 topluq üstünlüyü var idi. Əgər qarşılaşma “bayquşlar”ın qələbəsi ilə başa çatsaydı, güman ki, artıq indidən bu komandanı çempion hesab etmək mümkün idi. Lakin “Qarabağ” təcrübəsini göstərməyi bacardı. “Atlılar” 10 dəqiqə ərzində rəqib qapısına 3 qol vuraraq çətin situasiyadan xalla çıxmağı bacardılar. “Sabah” mövsümün sonunda çempion olmasa, məhz həmin 10 dəqiqədəki zəif performansa görə şikayətlənməlidir. Digər tərəfdən, “Qarabağ” qızıl medalları əldə etməyi bacarsa, məhz bu qısa periodda hücum xəttinin göstərdiyi əla oyuna minnətdar olmalıdır.

Nəticə hər nə olursa-olsun, azarkeşlər hər iki komandanın ifasında möhtəşəm oyun izlədilər. Qollar, maraqlı kombinasiyalar, güzəştsiz mübarizə, aşıb-daşan emosiyalar - bu qarşılaşmada hər şey var idi. Azarkeş və mütəxəssislərin fikrincə, bu oyun əsl Çempionlar Liqası matçı idi. Meydanda yaşananlar niyə məhz bu iki komandanın çempionluğa əsas iddiaçılar olduğunu göstərdi.

Yeri gəlmişkən, “Qarabağ” – “Sabah” oyununda elə ağdamlıların Çempionlar Liqası görüşlərindəki atmosfer var idi. Matçı tribunadan 10 mindən artıq azarkeş izlədi. Bu isə Premyer Liqada son 8 ilin mütləq rekordudur.



## Çempionata qayıdan “Qarabağ”

Bu mövsüm avrokubok macərası Qurban Qurbanovun komandası üçün çox məhsuldar oldu. “Süvarilər” ikinci dəfə iştirak etdikləri Çempionlar Liqasında yeni tarix yazdılar. Artıq komanda qitənin bir nömrəli klub turniri ilə vidalaşıb. “Qarabağ”ı yenidən ora aparan yol isə Azərbaycan Premyer Liqasından keçir. Bunun üçün yenidən çempion olmaq lazımdır. Lakin bu, əvvəlki qədər asan deyil. Möhkəm “Sabah”a qarşı üstünlük heç də “atlılar”ın tərəfində deyil. İki cəbhədə oynamağın da təsiri ilə bir sıra vacib xallar itirən “Qarabağ” təşəbbüsü rəqibinə verib. İndi onlar təqibçi rolundadırlar. Düzdür, artıq bütün diqqət çempionata yönəlib və bundan sonra hansısa komandanın “Qarabağ”ı büdrədəcəyi asan görünmür. Lakin “Sabah” da çox güclüdür və inamla irəliləməyə davam edir.

## SÜRƏTLƏ BÖYÜYƏN “SABAH”

Masazırda məskunlaşan komandanın hazırkı nəticələri təsadüfi deyil. 2018/19 mövsümündən Premyer Liqada yarışan kollektiv ilk vaxtlardan peşəkar yanaşması ilə diqqət çəkib. Bu isə davamlı inkişafla nəticələnib. “Sabah” hər mövsüm əvvəlkindən daha yaxşı nəticə göstərməyi bacarır. Son illər bir qayda olaraq avrokuboklara vəsiqə qazanmağı bacaran komanda keçən mövsümün sonunda ilk dəfə titul əldə etdi. Məhz “Qarabağ”la Azərbaycan Kubokunun finalında üz-üzə gələn “futuristlər” yekunda kuboku başları üzərinə qaldırdılar. Bu mövsüm isə komanda artıq çempionluğa əsas namizəddir.

“Sabah”ın seleksiya işindəki keyfiyyəti xüsusi diqqət çəkir. Bu mövsüm komandaya cəlb olunan Stiv Solvet, Akim Zedadka, Velyko Simiç, Timoteuş Puxaç, Aron Maluda kimi adlar qısa zamanda səviyyələrini ortaya qoydular. Üstəlik, komandada baş məşqçi seçimi də çox dəqiq alınıb. Litvalı Valdas Dambrauskas komandaya çox baxımlı futbol oynadır.

## ÇEMPİONLAR LİQASINA KİM GEDƏCƏK?

Azarkeşlər üçün ölkə çempionatı ilə yanaşı avrokubok nəticələri də çox önəmlidir. Son illər “Qarabağ”ın müəyyənləşdirdiyi çox böyük bir standart var. Ağdam təmsilçisi futbolsevərləri qrup mərhələlərinə, hətta oradan da uzaqlara öyrəşdirib. Xüsusilə, Çempionlar Liqasında bu mövsüm əldə edilən nəticənin təkrarlanması çox çətindir. Bu isə neytral azarkeşlərin yenidən məhz “Qarabağ”ın bu turnirə getməsini arzulamaları ilə nəticələnib. Lakin ÇL-ə çempion gedir. Hazırkı məqamda isə buna daha yaxın olan “Sabah”dır. Çempionlar Liqası iştirakçısı olmaq, orada mübarizəni erkən dayandırsan belə, digər turnirlərdə əlavə şanslar yaradır. Məhz belə mərhələlər klubları böyüdür. Bu gün çempionluğa iddia edən komanda sabah artıq ölkə futbolunun beynəlxalq vitrini olur.